## ZƏFƏR GÜNÜ, QÜRUR GÜNÜ!




4

# İlham Əliyevin Laçın bəyanatı: İrəvanın vaxtı azdır!



5

Səs

№ 173 (6614) 23 sentyabr 2022-ci il. Qiyməti 60 qəpik

# Səfərbərlik və nüvə ehtimalı



6

## Yeniyetmələri narkomaniyadan necə uzaq saxlayaq?



8

## Vaqe Ovannisyan: "Müharibə İrəvandan iki saatlıq məsafədə baş verə bilər"



14

## Onlar Şuşadan danışırdılar...




11

## Kafe və restoranlardakı astronomik qiymətlər

15



## DİQQƏT: Dollar bahalaşacaq?



16

## Futbolda İNANILMAZ YENİLİK - Bu sistem hər şeyi dəyişəcək!



# Azərbaycanı və Türkiyəni sarsılmaz birlik və qardaşlıq birləşdirir!

## Prezident İlham Əliyev Türkiyənin səhiyyə nazirini qəbul edib

**Prezident İlham Əliyev sentyabrın 22-də Türkiyə Respublikasının səhiyyə naziri Fahrettin Kocanı qəbul edib. Fahrettin Koca Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.**

Qonaq vurğuladı ki, Azərbaycanın və Türkiyənin dövlət başçıları arasında sarsılmaz birlik və qardaşlıq əlaqələri bütün digər qurumlar kimi, Səhiyyə nazirlikləri arasında da əməkdaşlıq üçün yol göstəricisidir və bu baxımdan ölkələrimizin nazirlikləri sıx əməkdaşlıq həyata keçirir.

Türkiyənin səhiyyə naziri qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması dərin sevinc hissi bəxş edir. Nazir şəhidlərlə bağlı başsağlığı verdi, qazilərə şəfa dilədi. Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayan Fahrettin Koca bu sənəddə əksini tapan hədəflər istiqamətində səhiyyə sahəsində də əlaqələri inkişaf etdirmək və dərinləşdirmək üçün çalışdıqlarını bildirdi.



Türkiyəli nazir dedi ki, ölkəsində səhiyyə sahəsində əldə olunan təcrübəni və elmi bilikləri azərbaycanlı həmkarlarla bölüşmək qardaşlıq borcudur. O, dövlətimizin başçısının dəstəyi ilə Bakıda keçirilən Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun əhəmiyyətindən danışdı.

Prezident İlham Əliyev Özbəkistanda Türkiyənin dövlət başçısı ilə görüşünü məmnunluqla xatırladı, dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə durmadan inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Şuşa Bəyannaməsinə toxunaraq bunu münasibətlərimizin rəsmi təzahürü kimi qiymətləndirdi, bu Bəyannamənin xalqlarımızın iradəsini, dövlətlərimizin maraqlarını əks etdirdiyini dedi.

Azərbaycan Prezidenti həm müharibə zamanı, həm də müharibədən sonrakı dövrdə Türkiyə həkimləri tərəfindən qazilərimizin müalicəsinə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığı qeyd etdi, bu baxımdan səhiyyə sahəsində də əlaqələrin təqdirəlayiq olduğunu dedi və Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun önəminə toxundu.

# Prezident İlham Əliyev Azərbaycanın yəhudi icmasını Roş ha-Şana bayramı münasibətilə təbrik edib



Prezident İlham Əliyev Azərbaycanın yəhudi icmasını yeni il bayramı - Roş ha-Şana münasibətilə təbrik edib. AZƏRTAC xəbər verir ki, təbrikdə Azərbaycanda məskunlaşan və buranı özünə doğma vətən bilən yəhudi icmasının yüz illərdir sülh və əmin-amanlıq şəraitində yaşayaraq özünəməxsus adət-ənənələrini, dil və mədəniyyətini qoruyub saxladığı, tarixin heç bir dönəmində antisemitizm və ayrı-seçkiliklə üzləşmədiyi vurğulanır. Qeyd olunur ki, əsrlər boyu ölkəmizdə mövcud olan multikultural dəyərlərin, dözümlülük prinsiplərinin və mədəni özünüifadə müxtəlifliyinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin başlıca istiqamətlərindəndir.

Təbrikdə daha sonra deyilir: "Təqdirəlayiq haldır ki, yəhudi əsilli həmvətənlərimiz cəmiyyətimizin ayrılmaz hissəsi olaraq, digər xalqların və etiqadların nümayəndələri ilə birlikdə respublikamızda gedən böyük quruculuq işlərində yaxından iştirak edir, müasir Azərbaycanın inkişafı və tərəqqisi naminə səylərini əsirgəmir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirirlər".

Roş ha-Şananın yeniliyi, mənəvi saflığı, xeyirxahlıq və həmrəylik duyğularını təcəssüm etdirdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycanın yəhudi icmasına ən səmimi arzularını yetirib: "Qoy, bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin".







# Prezident İlham Əliyevin Laçında Azərbaycan Bayrağını ucaltması Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb

**Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaltması Türkiyə kütləvi informasiya vasitələri tərəfindən günün aktual mövzusu olaraq geniş işıqlandırılıb.**

Belə ki, Anadolu və İHA xəbər agentlikləri, "TRT Haber", "TGRT", "TRT Avaz", "CNN Türk" və başqa telekanallar, "Milliyet", "Hurriyet", "Takvim", "Star" və digər qəzetlər başda olmaqla, ölkənin aparıcı media qurumları Azərbaycan dövlət başçısının Laçın səfərinin təfərrüatlarını geniş şəkildə Türkiyə ictimaiyyətinə təqdim edib.







Orijinal video və fotolarla yayılan xəbərlərdə diqqətə çatdırılır: "Azərbaycan Prezidenti İlham Əliyev növbəti dəfə işğalçı Ermənistana xəbərdarlıq edib ki, heç bir revanş cəhdlərinin faydası yoxdur".

Müxtəlif şərlövhələrlə yayılan informasiyalarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə və ondan sonrakı proseslərə müraciət olunub. Həmçinin Prezident İlham Əliyevin Laçın şəhərindən verdiyi mesajların siyasi mahiyyəti analiz edilib.

# Laçın şəhəri, Zabux kəndi, Sus kəndi yenidən qurulacaq!





## İLHAM ƏLİYEV: "Bu gün fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli Bayrağımızı ucaltdım. Bu Bayraq burada əbədi dalğalanacaq"

Tarixi Zəfərimizdən ötən iki ilə yaxın bir müddətdə işğaldan azad edilmiş ərazilərimiz, sözün əsl mənasında, nəhəng tikinti meydanına çevrilib. Görülən işlərə diqqət yetirdikdə bir daha Azərbaycanla Ermənistan arasında fərq, ən əsası, torpağın əsl sahibi ilə əsassız iddialarla bu torpağa sahib olmağa çalışan və ərazilərimizi 30 il işğal altında saxlayan arasında fərq özünü qabarıq şəkildə bürüzə verir. Biz nə qədər qurucu, yaradıcı xalqıqsa, erməni faşistləri də bir o qədər müharibələrin və barbarlığın törədicilərdir.Ən əsası isə, Azərbaycan Prezidentinin işğaldan azad edilmiş rayonlara mütəmadi səfəri etməsi dövlət başçısının bu məsələlərə nə dərəcədə həssas yanaşdığının sübutudur. Bu baxımdan sentyabrın 21-də Laçına səfər etməsi, səfər çərçivəsində şəhərin mərkəzində Azərbaycan Bayrağını qaldırması bir daha işğalçı Ermənistana öz yerini göstərməsidir. Həmçinin, dövlətimizin başçısı Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası ilə tanış olub, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Laçın şəhərində inşa ediləcək 110/35/10 kV-luq "Laçın" Qovşaq Yarımstansiyasının təməlini qoydu. Həmçinin, bildirdi ki, Qubadlı-Laçın avtomobil yolu da dördzolaqlı inşa ediləcək: "Yəni, bu yol əsasdır", - deyə dövlət başçısı əlavə edib.





### Bu gün quruculuq-abadlıq işlərini apararkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir

"İndi Azərbaycan xalqı görür ki, biz nəyə qadirik. Görür ki, biz müharibədə də qələbə qazanırıq, həyatda da qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir".Bunu Prezident İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaldan zaman çıxışında bildirib. Vurğulayıb ki, müharibədə də Zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur: "Bu gün quruculuq-abadlıq işlərini apararkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir. Bir daha demək istəyirəm, fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaq! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan!", - dövlət başçısı qeyd edib.

### Ümid edirəm ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər

Dövlət başçımız Laçın şəhərində Azərbaycan Bayrağını ucaldarkən çıxışında deyib ki, Güləbird Su Elektrik Stansiyasından, - hansı ki, biz qısa müddət ərzində inşa etmişik, - buraya xətlər çəkiləcək və beləliklə, elektrik enerjisi ilə burada heç bir problem olmayacaq: "Şəhərin vaxtilə - 1980-ci illərdə tərtib edilmiş Baş Planı vardır. Bu, indi təhlil edilir, əlavələr olunacaqdır və Laçın şəhərini biz bərpa edəcəyik. Ümid edirəm ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər. Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək". Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, artıq Laçın şəhərini bərpa edilməsinin vaxtı çatıb. Artıq buna hazırlıq işləri görülür.vaxtı çatıb. Dövlətimizin başçısı, həmçinin ərazidə dəymiş zərərin hesablanacağını da söyləyib: "Mən avqustun 26-dan dərhal sonra buraya bir neçə qrup göndərmişəm, bütün yaşayış fondunun təhlili, uçotu aparılacaqdır, dəymiş ziyan hesablanacaqdır. Eyni zamanda, təxirəsalınmaz işlərin görülməsi üçün təkliflər hazırlanacaqdır. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi, ilk növbədə, yenidən qurulacaq. Əminəm ki, biz buna tez bir zamanda nail olacağıq. Çünki Vətən müharibəsindən sonra bu günə qədər keçən dövr ərzində gördüyümüz işlər - genişmiqyaslı quruculuq və bərpa işləri göstərir ki, biz öz diyarımızı, Vətənimizi öz hesabımıza bərpa edirik və edəcəyik".

### Biz bütövlükdə Laçın rayonunu və bütün başqa rayonları bərpa edəcəyik

Azərbaycan Prezidenti İlham Əliyev onu da bildirib ki, maksimum iki il yarıma, - çox rahatlıqla Göygöldən Murov dağının altı ilə insanlar gəlib burada quracaqlar, yaşayacaqlar. Eyni zamanda dövlətimizin başçısı söyləyib ki, Qubadlı-Laçın avtomobil yolunun inşası ilə bağlı göstəriş verib: "Biz Horadiz-Zəngilan-Qubadlı avtomobil yolunun inşası ilə məşğuluq. Göstəriş vermişəm, Qubadlı-Laçın avtomobil yolu da dördzolaqlı inşa ediləcək. Yəni, bu yol əsasdır".Dövlətimizin başçısı rayonun elektrik enerjisi ilə bağlı mütəxəssislərin ezam edildiyini bildirərək vurğulayıb ki, Laçının elektrik təsərrüfatına baxış keçirildi, lazımi tədbirlər görüldü, generatorlar gətirildi: "Güləbird Su Elektrik Stansiyasından, - hansı ki, biz qısa müddət ərzində inşa etmişik, - buraya xətlər çəkiləcək və beləliklə, elektrik enerjisi ilə burada heç bir problem olmayacaq".Şəhərin vaxtilə - 1980-ci illərdə tərtib edilmiş Baş Planının olduğunu deyən Prezident İlham Əliyev bildirib ki, Laçın şəhərini bərpa edəcəyik: "Laçın şəhərini biz bərpa edəcəyik".

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bütün bu nailiyyətlərə xalqımızın iradəsi, birliyi nəticəsində əldə etmişik: "İndi Azərbaycan xalqı görür ki, biz nəyə qadirik. Görür ki, biz müharibədə də qələbə qazanırıq, həyatda da qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir. Müharibədə də Zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur. Bu gün quruculuq-abadlıq işlərini apararkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir".Bəli, bir sözlə, işğaldan azad edilən torpaqlarda bütün infrastrukturun, ümumilikdə rayon və şəhərlərimizin modern əsaslarda yenidən qurulması yaxın gələcəkdə Qarabağın cənnətə çevriləcəyindən xəbər verir.Ölkə başçısının dediyi kimi: "Bir daha demək istəyirəm, fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaq! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

ANALİTİK

***RƏFİQƏ KAMALQIZI***

# ZƏFƏR GÜNÜ, QÜRUR GÜNÜ!

**Artıq II Qarabağ müharibəsindən 2 il ötür. 27 sentyabr 2020-ci il Azərbaycan xalqının, Azərbaycan dövlətinin dönüm nöqtəsi oldu. Erməni silahlı qüvvələrinin sərhəd bölgələrimizə qarşı törətdiyi təxribatlara qarşı Azərbaycan Ordusu əks-hücuma keçərək düşməni cavab atəşi ilə susdurdu. Sonradan Azərbaycan Ordusu hücum əməliyyatı keçirərək 44 gün ərzində torpaqlarımızı düşmən tapdağından xilas etdi. II Qarabağ müharibəsi zamanı igid oğullarımız öz qanları ilə torpağımızı qorudu. SİA olaraq 27 sentyabr II Qarabağ müharibəsi ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrəndik:**




**27 sentyabrla bağlı CƏMİYYƏTİN BAXIŞI**

**Şəhər sakini Güloğlan Vəliyev:** "Bu günlər Azərbyacan tarixinin demək olar ki, ən çətin, eynilə də ən qürurlu günlərindən biridir. Bu zaman xalq arasında olan böyük birliyin şahidi olduq. Neçə ildir ki, işğal altın-



da qalan torpaqlarımızı geri qaytarmaq üçün əks-hücuma keçdik və 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdik. Allah şəhidlərimizə rəhmət eləsin. Onların hesabına bu gün biz alnı açıq gəzirik".

**Şəhər sakini Esmiralda Həsənli:** "Bu tarix nəinki Azərbaycan tarixinə, həm də dünya tarixinə qızıl hərflərlə yazılmalıdır. Ali Baş komandan İlham Əliyevin və Azərbaycan Ordusunun gücü ilə biz öz torpaqlarımızı işğaldan azad etdik. Çox şəhid verdik, çox qan axdı. Çox analar övladsız qaldı. Allah hər birinə rəhmət eləsin. Onlar ən yüksək zirvəyə - şəhidlik zirvəsinə ucaldılar. İndi biz torpaqlarımızı azad etsək də, yenə erməni quldurları öz təxribatlarından əl çəkmirlər. Onlara yaxşı dərs vermək lazımdır ki, bir də belə təxribatlara əl ata bilməsinlər".



**Şəhər sakini Əlibaba Məlikov:** "44 günlük Vətən müharibəsi, məhz 27 sentyabr tarixində başlayıb. Düşmən yenə öz təxribatçı əməllərindən əl çəkməyib və ordumuzun mövqelərini, günahsız sakinlərimizə raketlərlə hücum etmişlər. Neçə-neçə günahsız vətəndaşımız şəhid oldu. Amma biz Qələbə qazanaraq öz şəhidlərimizin qanını yerdə qoymadıq".



**Şəhər sakini İkram Qurbanov:** "Xalq olaraq, millət olaraq çox ağır bir dönəmdən keçdik. Neçə il həsrətini gözlədiyimiz torpaqlarımız uğrunda müharibə başlamışdı. 2 il keçməsinə baxmayaraq hələ də biz tam olaraq öz vətənimizə geri qayıtmamışıq. Çünki hələ də ermənilərin dağıtdıqları yurdumuzu abadlaşdırmağa çalışırıq. Həmin əraziləri minalardan təmizləməyə çalışırıq".



**Şəhər sakini Elmira Ağayeva:** "27 sentyabr tarixində ermənilər bölgələrimizə yenə atəş açmağa başladılar. Sərhəddə olan kəndlərimiz atəşə tutuldu. Bu təxribatları Azərbaycan dövləti cavab atəşi ilə susdurdu.



Sonra müharibə başladı və 44 gün davam etdi. O günlərin hələ də fəsadlarını yaşayırıq. Allah dövlətimizi qorusun. Allah şəhidlərimizə rəhmət eləsin".

**2-ci vətən müharibəsi iştirakçısı Çingiz Abdullayev:** " 27 sentyabr 2-ci vətən müharibəsi zamanı cənab Prezidentin qismən səfərbərlik elan etməsindən sonra döyüş bölgəsinə getdim. Hadrut və Şuşa şəhərinin azad olunmasında iştirak etmişəm. XTQ-nin tərkibində döyüşmüşəm. 2-ci Vətən müharibəsi xalqımızın 30 illik vətən həsrətinə son qoydu. Doğma Qarabağ və şərqi Zəngəzur əsl sahiblərinə qayıtdı. Allah şəhidlərimizə rəhmət eləsin, qazi qardaşlarıma şəfa versin .



***Abutel İlhamqızı***

# "Ermənistan yenidən Minsk Qrupunu fəallaşdırmağa çalışır"

"Ermənistan növbəti təxribatını törətməklə sülh prosesini əngəlləmək istədiyini bir daha nümayiş etdirdi. Ermənistan heç vaxt regionda sülh və təhlükəsizliyin təmin olunmasının tərəfdarı olmayıb". Bu sözləri SİA-ya açıqlamasında deputat Elşad Mirbəşiroğlu deyib.




Onun sözlərinə görə, Ermənistan dövlətinin missiyası kənar dairələrin maraqlarına xidmət edərək regionda münaqişənin davamlı olmasından ibarətdir: "Ermənistanın bu təxribatlarının əsas səbəbi sülh prosesini əngəlləməyə çalışmağı, ikincisi sülh sazişini imzalamaq istəməməyidir. Ermənistan təcavüzkar dövlət kimi sülh sazişini imzalamağa məcburdur. Bu səbəbdən Ermənistan yenidən ATƏT-in Minsk Qrupunu fəallaşdırmağa çalışır.

Ermənistan təcavüzkar və işğalçı dövlətdir. Ermənistanın bütün təxribatları əksinə Azərbaycanın mövqelərini daha da gücləndirməsini şərtləndirir. Azərbaycan tərəfi Ermənistan tərəfinin törətdiyi təxribatların qarşısını layiqincə almaqla yanaşı, həmçinin bir sıra strateji yüksəliklərdə nəzarəti təmin etdi. Ermənistan bundan sonra da təxribatlarını davam etdirəcək, amma Azərbaycan bu təxribatların qarşısını layiqincə alır".

***Arzu Qurbanlı***

# Mövlud Çavuşoğlu: "Böhranlara hazırlıqlı olmalıyıq"

Mövlud Çavuşoğlu BMT-nin 77-ci Baş Assambleyasının iclasları üçün ABŞ-ın Nyu York şəhərində səfərdə olan Çavuşoğlu Türkiyənin ev sahibliyi etdiyi MİKTA-nın (Meksika, İndoneziya, Cənubi Koreya, Türkiyə və Avstraliya) 22-ci Xarici İşlər Nazirləri Toplantısında çıxış edib. SİA xəbər verir ki, Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, nə pandemiya, nə də Ukraynadakı müharibə qarşılaşacağımız son böhran olmayacaq: "Növbəti probleme daha yaxşı hazırlaşmalıyıq. Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə birlikdə həyata keçirdiyimiz İstanbul taxıl müqaviləsi qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində əhəmiyyətli bir addım oldu. Müqavilənin imzalanması ilə qlobal bir rahatlıq oldu".



***Qönçə Quliyeva***

ANALİTİK + ÖZƏL

# İlham Əliyevin Laçın bəyanatı: İrəvanın vaxtı azdır!



**Prezident İlham Əliyevin Laçın şəhərinə səfəri çərçivəsində irəli sürdüyü qətiyyətli mesajları artıq belə deməyə əsas verir ki, Azərbaycan regional və müstəqil güc olması ilə yanaşı, həm də dövlətçilik maraqlarımıza xələl, yaxud sülh prosesinin əldə olunmasına mane ola biləcək istənilən cəhdlərin qarşısını almağa qadirdir.**

Digər tərəfdən, fakt budur ki, Azərbaycanın sülhə doğru çoxsaylı addım atmalarına rəğmən, Ermənistanın hərbi-siyasi dairələri və bu dairələrin havadarları hər dəfə sülh prosesini müxtəlif bəhanələrlə uzadır, üstəlik, bu da azmış kimi yeni təxribatlar törətməklə vəziyyəti gərgin saxlamağa səy göstərir. Eyni zamanda, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata əks olunan bəndlərə də əməl etməyən Ermənistanın terrorçu qrupları ərazilərimizdə minalar basdıqmaqla çoxsaylı vətəndaşlarımızın və hərbçilərimizin ölümlərinə, yaralanmalarına yol açırlar. Məhz bu baxımdan, Prezident İlham Əliyev Laçın səfərində həmin məqamlara xüsusilə toxundu və bildirdi ki, müharibədən sonra təkcə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina basdırılıb. Bu isə reallıqda müharibənin davam etməsi anlamını daşımaqdadır. Lakin düşmən nə qədər belə cəhdlərini davam etdirərsə bir o qədərdən də artıq daha ağır zərbələrə məruz qalmalı olacaq.

**Müzəffər Ali Baş Komandan bu dəfə yalnız Ermənistana deyil, həm də onun havadarlarına qətiyyətli mesajını verdi**





## Əbəs deyil ki, Müzəffər Ali Baş Komandan çıxışı zamanı sentyabrın 12-13-də növbəti erməni təxribatı məsələsinə də toxundu

SİTAT: ”Bu, Azərbaycana qarşı açıq terror hərəkətidir. Müharibədən sonra 240-dan çox Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində ya həlak olub, ya da ağır yaralanıb. Yəni, bizə qarşı müharibə davam edir, bizim insanlarımız həlak olur. Heç vaxt buna imkan verə bilmərik. Ermənistanı dəfələrlə xəbərdar etmişik, bu çirkin əməllərdən əl çəksin, peşman olacaq”.

Əbəs deyil ki, Müzəffər Ali Baş Komandan çıxışı zamanı sentyabrın 12-13-də növbəti erməni təxribatı məsələsinə də toxundu və ümid etdiyini bildirdi ki, həmin zaman düşmənə vurulan sarsıdıcı zərbə ona dərs olmalıdır. SİTAT: ”Nəticə etibarilə sentyabrın 13-də bizə qarşı növbəti təxribat törədilərkən Azərbaycan Ordusu cavab verərək düşməni yenə də yerinə oturtdu. Ümid edirəm ki, nəhayət bu, onlara dərs olacaq. Çünki gördülər ki, bizi heç kim və heç nə dayandıra bilməz. Heç kimin zəngi, heç bir bəyanat, heç bir təşəbbüs bizi dayandıra bilməz. Biz öz torpağımızdayıq və öz torpağımızı qoruyuruq”.

## Hansısa dövlətlərin hansısa ”başbilənlərinin” cəhdləri Bakı üçün səfər həddindədir!

Sərhəd boyunca əldə edilən mövqelərin istənilən erməni təxribatını qabaqcadan görməyə və lazımi tədbirlər həyata keçirməyə imkan verdiyini bildirən Prezident onu da deyib ki, qəhrəman Azərbaycan Ordusu artıq bütün strateji cəhətdən əlverişli mövqelərə sahiblənib və düşmən bundan sonra da həmin cəhdlərini davam etdirmək qərarına gələrsə onda tamamilə öz məhvinə imza atmalı olacaq. SİTAT: ”Biz ta Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik. Bu mövqelər bizə həm hərbi üstünlük verir, həm böyük əraziyə vizual nəzarət imkanı yaradır”.

Beləliklə, dövlət başçımız bir daha öz xəbərdarlığını etdi və bununla yanaşı, Ermənistana havadarlıq edən bəlli Qərb və s. dairələrinə də öz mesajını yolladı. Yəni bununla bildirmək istədi ki, hansısa dövlətlərin hansısa ”başbilənləri” Azərbaycana qarşı ədalətsiz, haqsız mövqe nümayiş etdirmək qərarını davam etdirəcəksə, üstəlik Ermənistanın təxribatçı əməllərinə öz təbirlərincə ”haqlı don” geyindirməyə çalışacaqsa, bu kimi məsələlər rəsmi Bakı üçün sıfır həddindən o tərəfə keçməyəcək. Çünki Azərbaycan öz dövlətçilik maraqlarını və xalqının maraqlarını müdafiə edir və heç bir xarici ”siyasi başbilənlik” bu maraqları əsla üstələyə bilməz!

## Ermənistan öz subyektliyini qorumaq istəyirsə, onun Azərbaycanla sülh müqaviləsini imzalamaq marağı olmalıdır!

Digər tərəfdən, fakt budur ki, reallıqda sülhün razılaşmasının imzalanması üçün hər bir şərait yaradılıb və əslində, Ermənistan tərəfi də anlamağa məhkumdur ki, bu razılaşma ona və xalqına da sərf edir. Lakin təəssüf ki, bunu anlamayan düşmən tərəfi yalnız Azərbaycan tərəfindən sərt cavab addımları atıldıqdan sonra hər hansı qərarlar verməyə məcbur olur. Yəni fakt budur ki, sülhün əldə olunması prosesinə əngəllər törədən Ermənistana münasibətdə məntiq, ağıl, düşüncə deyil, təəssüf ki, eskalasiya daha münbit vasitəyə çevrilir. Məhz güc tətbiqindən sonra hazırda əldə olunmuş bəzi məsələlər öz həllini tapıb. Çünki erməni tərəfi qarşılıqlı addımlara getmir, üstəlik qeyd edilənlərlə yanaşı, nəqliyyat dəhlizinin açılmasında da inadkarlıq nümayiş etdirir.

O cümlədən, əgər Ermənistan öz subyektliyini qorumaq istəyirsə, onun Azərbaycanla sülh müqaviləsini imzalamaq marağı olmalıdır. Əslində bu, Ermənistanın öz müttəfiqlərini tez-tez dəyişməsindən daha məntiqli addım sayıla bilərdi. İrəvanın vaxtı çox azdır!

*Rövşən RƏSULOV*

# Səfərbərlik və nüvə ehtimalı



**Qərb Rusiyanın nüvə silahından istifadə niyyətlərinə şübhə ilə yanaşır. Moskva döyüş başlıqlarının sayının azaldılması ilə bağlı saziş və müqavilələrdə iştirak edir, eyni zamanda öz arsenalının modernləşdirilməsi ilə məşğuldur. Rusiya təkcə strateji deyil, həm də taktiki nüvə silahlarını fəal şəkildə inkişaf etdirir. Sentyabrın 17-də "The New York Times" ABŞ rəsmilərinə istinadən yazıb ki, onlar Rusiya prezidenti Vladimir Putinin taktiki nüvə silahından, ehtimal ki, Qara dəniz, Şimal Buzlu Okeanı və ya Ukrayna üzərində nümayiş xarakterli bomba hücumlarından istifadə edəcəyindən ehtiyat edirlər.**



ABŞ hərbi kəşfiyyatı rəsmisinin sözlərinə görə, Putinin belə bir addımın (nüvə silahından istifadənin) Rusiyanın digər ölkələrdən, o cümlədən Çindən təcrid olunmasına gətirib çıxara biləcəyinə inanması ilə bağlı müzakirələr gedir. Moskvanın bəyan etdiyi kimi, nüvə silahından yalnız dövlətin nüvə doktrinasına uyğun istifadə edəcək və bu, bizi bu sənədi və hərbi strategiyada nüvə silahının tutduğu yeri nəzərdən keçirməyə vadar edir.

## Uzun qorxu hekayəsi

Bir neçə il əvvəl nüvə təhdidlərinə qarşı çıxanların önündə gedən Putin deyirdi ki, bu, ən son addımdır. Bu, zərərli ritorikadır və mən bunu alqışlamıram. Lakin əməliyyat başlayandan üç gün sonra o, eyni şeyi edib. Bütün bu hadisələrin gedişatında əsas sual yaranır, Rusiya nüvə silahını yalnız siyasi təzyiq məqsədi ilə xatırladır, yoxsa hərbi doktrinaya görə həqiqətənmi onlardan istifadə etmək mümkündür? Bu məqamı daha dərindən başa düşmək üçün 2 iyun 2020-ci ildə dərc edilmiş "Rusiya Federasiyasının nüvə qarşısının alınması sahəsində dövlət siyasətinin əsasları" adlı altı səhifəlik sənədi nəzərdən keçirmək lazımdır. Orada Rusiyanın nüvə silahına qarşı atılmalı olan addımlarından bəhs edilir. Həmçinin, nüvə təhlükəsi və ya nüvə silahından faktiki olaraq ilk istifadə Moskvanın maraqlarına uyğun şərtlərlə istifadə edilməsindən danışılır.

Moskva bu baxımdan nüvə silahını yalnız çəkindirmə vasitəsi hesab edir və bu məqama aydınlıq gətirən bir sıra şərtlər qoyur. Beləliklə, nüvə silahından istifadə onun müttəfiqlərinə qarşı eyni nüvə silahından və ya digər kütləvi qırğın silahlarından istifadə edilməsinə, düşmənin Rusiya Federasiyasının ərazisindəki infrastruktura və hərbi obyektlərə hücumuna cavab ola bilər. Eləcə də adi silahlardan istifadə etməklə dövlətə qarşı genişmiqyaslı təcavüz, onun mövcudluğunu təhlükə altına qoyan hallarda da bu qaydalar keçərli sayılır.

Bu müddəalar Moskvanın nüvə silahı yerləşdirmək imkanlarını məhdudlaşdırsa da, əslində onlar asanlıqla Kremlin şərtlərinə uyğunlaşdırıla bilər. Amerika və Avropanın bir çox ekspert və alimləri hesab edirlər ki, Rusiya və keçmiş Sovet İttifaqı həmişə nüvə silahının hərbi təlimlərdə böyük rol oynaması doktrinasına əməl edib. Məlumatlara görə, bu ölkənin təlimləri zamanı NATO-nun şərti üzvlərinə qarşı "nüvə silahından istifadə" aktiv şəkildə tətbiq olunur.

Bu doktrinanın dərin tarixi bağlılığı var və Rusiya nüvə silahına çəkindirici vasitə kimi baxır. Sovet İttifaqı Soyuq Müharibədə məğlub olanda və sonra dağılanda nüvə silahı yeganə çəkindirici qüvvə olaraq qaldı. Lakin bütün yuxarıda deyilənlərə əlavə olaraq, bəzi ekspertləri Rusiya üçün nüvə ssenarisinin aktivləşdirilməsinin qeyri-mümkün bir şey olmadığına inandıran başqa, daha vacib səbəb də var.

## Rusiya indi nə edir?

Sovet İttifaqı ilk nüvə sınağını 29 avqust 1949-cu ildə, ABŞ-ın İkinci Dünya Müharibəsi zamanı Yaponiyaya atom bombasından istifadə etməsindən dörd il sonra keçirdi. İlk termonüvə bombası 1953-cü ildə SSRİ tərəfindən sınaqdan keçirildi. Sovet nüvə başlıqlarının ehtiyatı xüsusilə 1960-1970-ci illərdə sürətlə artdı və ölkənin artıq 40.000 nüvə başlığına malik olduğu 1986-cı ildə pik həddinə çatdı.

1960-cı illərdə Rusiya ABŞ kimi nüvə üçlüyünü inkişaf etdirdi: qitələrarası ballistik raketlər (ICBM), sualtı qayıqlardan buraxılan ballistik raketlər (SLBM) və nüvə silahı ilə təchiz edilmiş ağır bombardmançılar. Belə bir arsenal ölkə hüdudlarından çox-çox uzaqlarda düşməni vurmağa qadir olan strateji nüvə silahı adlanır.

Yarım əsrdən çoxdur ki, Moskva nüvə başlıqlarının sayının azaldılmasını nəzərdə tutan saziş və müqavilələrdə iştirak edir, buna görə də 1980-ci illərdən bu yana nüvə başlıqlarının sayı altı minə qədər azalıb. Bununla paralel olaraq dövlət öz arsenalını modernləşdirməyə başlayıb.

2020-ci ilin dekabrında Rusiya prezidenti Vladimir Putin strateji nüvə qüvvələrinin əvvəlki illə müqayisədə 82 faizlə müqayisədə 86 faiz müasir silahlarla təchiz edildiyini açıqlamışdı. O, bir il ərzində bu rəqəmin 88,3%-ə yüksələcəyini proqnozlaşdırır, çünki silahlı qüvvələr üçün vacib olan bütün sahələrdə dəyişiklik sürəti qeyri-adi dərəcədə yüksəkdir.

## Rusiyanın "uzun qolu"

Rusiya Topol ballistik raketlərini hər il bir və ya iki alay nisbətində (doqquzdan 18-ə qədər raket) çıxarmaqda davam edir və onları RS-24 Yars qitələrarası ballistik raketləri ilə əvəz edir. Yars raketinin ilk sınaq buraxılışı 2007-ci ildə edilib və artıq 2010-cu ildə istismara verilib. Strateji Raket Qüvvələrinin sərəncamında 147-dən çox RS-24 Yars raketi var, onlardan 135-i mobil buraxılış qurğularından buraxıla bilər, 12-si isə stasionar yerləşdirmə üçün nəzərdə tutulub.

Raketin maksimum uçuş məsafəsi 12 min kilometrdir və hər birinin tutumu 150-500 kiloton olan 6-10 döyüş başlığı daşımaq gücündədir. MIRV texnologiyası hər biri müxtəlif hədəfləri vura bilən çoxlu döyüş başlıqlarını daşımağa imkan verir. "Yars"ın raket əleyhinə müdafiə sistemini aradan qaldırmaq üçün vasitələri var. Raket uçuş zamanı manevr edir və xüsusi tələlər daşıyır. Onun düşmənin raket hücumundan müdafiə sistemini keçmək şansı 60-65% təşkil edir.

"Yars" hədəfləri cəmi 100-150 metr sapma ilə vurur. Raketi buraxılışa hazırlamaq üçün cəmi yeddi dəqiqə vaxt lazımdır. Yüksək xəbərdarlıq rejiminin tətbiqindən sonra "Yars" raketləri gizliliyi artırmaq üçün 45 km/saat sürətlə hərəkət edən və meşəlik ərazidə işləməyə qadir olan traktorlardan buraxıla bilər.

## "Poseydon"

"Poseidon" (Status-6) atom enerju qurğusu ilə təchiz edilmiş Rusiya pilotsuz sualtı gəmisidir. Bu hərbi və düşmənin mühüm təsərrüfat obyektlərinin məhv edilməsi, sadə dillə desək, limanlara və şəhərlərə irimiqyaslı ziyan vurmaq üçün nəzərdə tutulub. Poseidon 100 meqaton potensiala malikdir ki, onun dağıdıcılıq gücü bizə məlum olan nüvə başlıqlarının törətdiyi partlayışından iki dəfə çoxdur.

"Poseidon" 1989-cu ildə hazırlanmağa başladı, lakin Sovet İttifaqının dağılması, Soyuq Müharibənin başa çatması və nüvə tərksilahı prosesi səbəbindən iş dayandırıldı. Rusiya daha sonra "Poseydon" layihəsi üzərində işləməyə davam etdi və 2015-ci ildə bu barədə məlumat Müdafiə Nazirliyinə açıqlandı. Bu pilotsuz sualtı avtomobil 10 min kilometr uçuş məsafəsinə malikdir və su altında sürəti 200 km/saata çata bilir. Bu sürətə görə onun qarşısını almaq mümkün deyil, çünki adi torpedolar ona çata bilməyəcək.

"Poseidon" min metrə qədər dərinliyə dalma qabiliyyətinə malikdir və aşkar edilsə belə, onu torpedolara qarşı faktiki olaraq toxunulmaz edir. Rusiyanın pilotsuz sualtı gəmisi Arktikada buz örtüyü altında fəaliyyət göstərə bilər. "Poseydon" Rusiya Hərbi Dəniz Qüvvələrində 2027-ci ilə qədər istifadəyə veriləcək.

## Tupolevdən atəş

Tu-160M çox rejimli səsdən sürətli strateji bombardmançı bu yaxınlarda Rusiyanın nüvə arsenalına əlavə edildi. Bu, dünyanın ən güclü və ən ağır döyüş təyyarəsidir. Hər bir Tu-160M 12 havadan buraxılan qanadlı nüvə raketləri də daxil olmaqla 40 tona qədər sursat daşıya bilər. Ümumilikdə bu tip bombardmançılar 800-dən çox silah daşıya bilir.

Tu-160 Sovet İttifaqı tərəfindən hazırlanmış sonuncu strateji bombardmançı idi, lakin hələ də Rusiya ordusu tərəfindən istifadə olunur. Eyni zamanda, iki ayrı modernləşdirmə proqramı həyata keçirilirdi: birincisi, süni intellektə əsaslanan yeni nəsil mühərrikin və rəqəmsal avionikanın quraşdırılması üçün "dərin modernləşdirmə", ikincisi isə bu cür sistemlərin tamamilə yeni təyyarə konstruksiyalarına inteqrasiyasını nəzərdə tuturdu.

3 noyabr 2020-ci ildə Rusiya modernləşdirilmiş Tu-160M raket daşıyıcısının Kazandan uçduğunu elan etdi. Modernləşdirilmiş bombardmançı təyyarənin yeni mühərrikləri ilk uçuşu 2 saat 20 dəqiqə davam edib və altı min metr yüksəklikdə həyata keçirilib. Yeni mühərrik quraşdırıldıqdan sonra Tu-160M-in uçuş məsafəsi min kilometrə yaxın artıb.

RS-24 Yars, "Poseidon" və Tu-160M Rusiyanın nüvə modernləşdirmə proqramının yalnız bir neçə nümunəsidir. Moskva indi təkcə strateji nüvə silahlarının inkişafı üzərində işləyir.

Nüvə döyüş başlıqlarının ümumi sayından təxminən 1600 ədədi müxtəlif silahlarda yerləşdirilib. Belə ki, 800-ü qitələrarası ballistik raketlərdə, 624-ü sualtı ballistik raketlərdə və 200-ü strateji bombardmançı təyyarələrdə. Rusiya ehtiyatında 985 strateji və 1912 qeyri-strateji döyüş başlığı var, daha 1760-ı isə istismardan çıxarılıb. Nəticədə, döyüş başlıqlarının ümumi sayı 6-6,3 min ədəddir. Ancaq başa düşmək lazımdır ki, bunlar yalnız təxminlərdir, çünki ölkələr nüvə başlıqlarının real sayını açıqlamayıblar.

Beləliklə, belə qənaətə gəlmək olar ki, Rusiyanın nüvə modernləşdirilməsi proqramı, hərbi təlimlərin sayının və miqyasının artması, başqa ölkələrdən gələn nüvə təhlükələri, hərbi doktrinanın yenilənməsi dünyanı Rusiyanın nüvə silahından istifadə niyyətlərinə ciddi yanaşmağa vadar edir. Əks təqdirdə hadisələr gözlənilməz istiqamətdə inkişaf edə bilər.

***V.VƏLİYEV***

# İşğaldan azad olunmuş ərazilərdə böyük quruculuq işləri: infrastruktur yenilənir



Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə səfəri zamanı erməni faşistlərinin törətdiyi vəhşiliklərlə tanış olur, öz tapşırıq və göstərişlərini verir. Xatırladaq ki, Cənab Prezidentin 2020-ci ötən il noyabrın 16-da işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfər etdi və dövlət başçısı tərəfindən Füzuli - Şuşa avtomobil yolunun təməli də qoyuldu. Beləliklə, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinə start verildi. Dövlət başçısının tapşırığı ilə qısa bir zamanda bir neçə yol layihəsinin icrasına başlanıldı və bu gün uğurla davam etdirilir. Reallaşacaq layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. İrimiqyaslı layihələr sırasında beynəlxalq hava limanları qeyd olunmalıdır. Belə ki, dövlət başçısı tərəfindən Füzulidə təməli qoyulan beynəlxalq hava limanının 8 ay ərizində inşası və istifadəyə verilməsi iqtisadi gücümüzü göstərdi. İşğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə, ilkin olaraq, pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verildi. Ağdam, Şuşa, Zəngilan kimi işğaldan azad olunun ərazilərdə aparılan abadlıq quruculuq işləri Böyük Qayıdışın təntənəsidir. Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə artıq bir qism əhali köçürüldü. Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan ailələr yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə məskunlaşıblar. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Laçın rayonuna səfər edib. Səfər çərçivəsində Azərbaycan Prezidenti Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırıb.















## YENİ YOL LAÇIN BEYNƏLXALQ HAVA LİMANINA QƏDƏR RAHAT GEDİŞ-GƏLİŞİ TƏMİN EDƏCƏK

Xatırladaq ki, 2021-ci ilin avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı Laçın rayonunda beynəlxalq hava limanının təməli qoymuşdu. Bu ərazilərdə tezliklə beynəlxalq hava limanları istifadəyə veriləcək ki, bu da bölgənin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq. Əlbəttə ki, belə irimiqyaslı lahiyələrə start verilməsi işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasının göstəricisidir. Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açacaqdır.Dövlət başçısı Laçına səfəri zamanı Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası ilə tanış olub.Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də uzunluğu 76,3 kilometr olan Kəlbəcər-Laçın avtomobil yoludur. Hazırda bu yolun və yol üzərində tunellərin inşası davam etdirilir.Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır. Yolboyu tikintisi nəzərdə tutulmuş 12 avtomobil tunelindən 5-nin (T1, T2, T5, T6 və T7) tikinti işləri uğurla davam etdirilir.

Kəlbəcər-Laçın yolunda inşa olunan birinci tunelin (T1) uzunluğu 187 metrdir. Hazırda bu tunelin giriş portalının tikintisi həyata keçirilir. Uzunluğu 354,4 metr olan T2 tunelində giriş istiqaməti üzrə 115,8 metr qazma işləri görülüb. Uzunluğu 448,7 metr olan T5 tunelində çıxış istiqaməti üzrə 331 metr qazma işləri aparılıb. T6 tunelinin uzunluğu 612,4 metrdir. Tuneldə hər bir istiqamət üzrə ümumilikdə 537,4 metr qazma işləri yerinə yetirilib. T7 tuneli 2420,1 metr uzunluğunda olmaqla inşa edilir. Tunelin hər bir istiqaməti üzrə ümumilikdə 532 metr qazma işləri görülüb. Bu tunellərdə giriş və çıxış olmaqla hər iki istiqamətdə qazma, partlatma və qırıcı üsullarla qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam etdirilir.Kəlbəcər-Laçın avtomobil yolu boyunca torpaq yatağı üçün təməlin hazırlanması, yamacların formaya salınması, 12 düzbucaqlı və 4 dairəvi borunun inşası işləri davam etdirilir.Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2, 3 və 4 hərəkət zolaqlı olmaqla, birinci, ikinci və üçüncü texniki dərəcələrə uyğun olaraq inşa edilir. Yolun ilk 38 kilometrlik hissəsində suların ötürülməsini təmin etmək məqsədilə ümumi uzunluğu 3348 metr olan 60 dairəvi boru, həmçinin zəruri yerlərdə ümumi uzunluğu 1038 metr olan 9 avtomobil körpüsünün inşası nəzərdə tutulur.Kəlbəcər-Laçın avtomobil yolu başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə işğaldan azad edilmiş Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və yenicə inşasına başlanılmış Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcək.

Bununla yanaşı, Prezident İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Laçın şəhərində inşa ediləcək 110/35/10 kV-luq "Laçın" Qovşaq Yarımstansiyasının təməlini qoyub. Laçın şəhərinin və ətraf kəndlərin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün şəhərin cənub girişində inşa olunacaq rəqəmsal yarımstansiya Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmış layihə üzrə tikiləcək. Ümumi gücü 80 meqavatamper olacaq bu yarımstansiya qovşaq funksiyasını daşıyacaq. 44 günlük Vətən müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda tikilən yarımstansiyaların və yeni çəkilən 400 kilometrdən çox yüksəkgərginlikli ikidövrəli xətlərin dairəvi elektrik təchizatı yaradılacaq. Bununla da, işğaldan azad olunmuş ərazilərdəki yüksəkgərginlikli xətlərdən birində qəza baş verərsə, dərhal digər istiqamətdən gələn xətt vasitəsilə oraya gərginlik veriləcək. Bununla da Qarabağda və Şərqi Zəngəzurda enerjinin verilişində fasilə yaranmayacaq.

## BİZİ ZƏFƏRƏ DOĞRU APARAN MÜDRİK SİYASƏT

Bildiyimiz kimi, XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kuliminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Müstəqilliyimizin ilk illəri hərc-mərclik, özbaşınalıq dövrü kimi xatırlanır. Yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Belə bir zamanda, Azərbaycanın 20 faiz torpaqları işğal altına düşdü. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində baş verdi. İşğalçı və təcavüzkar Ermənistan üzərində bu böyük tarixi qələbənin qazanılmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı Cənab İlham Əliyevin düşünülmüş, ardıcıl və məntiqi siyasəti, hərbi bacarığı, məharəti həlledici rol oynadı.Cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Vətən müharibəsində baş verən hadisələr, aparılan uğurlu hərbi əməliyyatlar, eyni zamanda, Ermənistanın Azərbaycanın dinc mülki əhalisinin terrora məruz qoyması konkret faktlarla dünya ictimaiyyətinə çatdırıldı. 30-dan artıq dünya KİV-lərinə müsahibələrində Cənab Prezidentin siyasi hazırlığı, məntiqi düşüncəsi, əsas hədəfə istiqamətlənmiş açıqlamalar diqqəti çəkdi. Cənab İlham Əliyev informasiya mübarizəsinin də qalibi oldu. Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı, xalq-iqtidar birliyi, siyasi həmrəylik düşmən üzərində tam və qəti qələbənin təmin edilməsində əhəmiyyətlidir. Bu gün Azərbaycan işğaldan azad olunan ərazilərdə böyük quruculuq işlərinə start verib. Bu 30 il ərizində Ermənistan işğal etdiyi ərazilərin bütün infrastrukturunu, maddi-mədəniyyət abidələrimizi dağıtmış, bu ərazilərdəki meşələrimizi yandırmış, məhv etmişdir. Təbii ki, Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı qeyd etdiyimiz bu və ya digər layihələrin reallaşlmasına imkan verir. 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə müasir infrastruktur yaradılır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeniyetmələri narkomaniyadan necə uzaq saxlayaq?

**Müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Bu bəla ilə mübarizə etmək bir o qədər asan deyil. Narkotik maddə alverçiləri uşaqların çox olduğu yerlərdə olur, onlara həmin məhsulları təklif edirlər. Pul qazanmaq naminə onlar insanları, xüsusilə uşaqları ölümə aparan bu pis vərdişə alışdırırlar. Narkotik maddələr müxtəlif çeşidlidir. Daha çox yayılanları isə xaş-xaş, tiryək, marixuana, heroin, kokain və sairədir. Son illər kimyəvi laboratoriyalarda hazırlanan yeni sintetik narkotik maddələr meydana gəlmişdir. Bunlar xüsusilə təhlükəlidir, çünki birinci dəfədən adamı özünə alışdıra bilir. Narkotiklərdən asılılıq ağır xəstəliyə - narkomaniyaya gətirib çıxarır.**



1987-ci il iyunun ayında narkomaniya kimi dəhşətli fenomenə qarşı mübarizədə xalqların siyasi iradəsini təmsil etmək məqsədilə Vyanada Narkomaniya və Narkotik Qaçaqmalçılığı ilə Mübarizə üzrə Beynəlxalq Konfrans keçirilmişdir.

Həmin konfransın keçirildiyi gün narkomaniyanın mənfi nəticələri barədə geniş əhali kütləsini məlumatlandırmaq məqsədi ilə Narkomaniyaya və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Beynəlxalq Mübarizə Günü elan edilmişdir. Bu münasibətlə hər il Narkomaniya və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Beynəlxalq Mübarizə Gününə həsr olunmuş xüsusi şüar altında yığınacaqlar keçirilir.

Narkotik istifadəsi insan həyatı qədər qədim ola bilər və hələ heç kim onun nə vaxt başladığını müəyyən edə bilməyib. Şübhəsiz ki, bu fenomen uzaq keçmişdən bütün ölkələrdə mövcuddur və onun ölümcül nəticələri hamıya məlumdur. Lakin bu gün milli və beynəlxalq təhlükəsizliyi təhdid edən və insanların psixi, fiziki və mənəvi sağlamlığına təsir edən amil kimi istehsal həcminin artması, beynəlxalq qaçaqmalçılıq, ticarətin yayılması və narkomaniyanın inkşafı böyük vüsət almışdır. Bu gün narkotik ticarəti, silah və neft ticarətindən sonra dünyanın üçüncü ən gəlirli biznesidir. Ümumdünya Narkotik Hesabatında milyondan çox narkotik istifadəçisi var və illik narkotik alverində də yüz milyardlarla insan artır.

Bir sıra təşkilati-hüquqi, institusional və əməli praktiki tədbirlər həyata keçirilməklə bərabər, həmçinin qlobal bəla ilə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak da intensiv xarakter almışdır. Azərbaycan Respublikası bu sahə üzrə beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək, Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulmuşdur.

Bu gün ölkəmizdə həyata keçirilən narkomaniyaya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin ön sıralarında Daxili İşlər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin və Dövlət Sərhəd Xidmətinin əməkdaşları gedirlər. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk illərdən ölkədə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət səviyyəsinə qaldırmış və hazırda bu strateji kurs dövlət başçısı cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Azərbaycan BMT-nin narkotik vasitələr və psixotrop maddələrlə əlaqədar baza konvensiyasının hər birinə qoşulmuş, bu sahədə məsələləri tənzimləyən çoxsaylı qanunvericilik aktları qəbul olunmuşdur.

## Narkotikdən asılılıq insanı həm mənəvi, həm maddi, həm də psixoloji cəhətdən çökdürür

”Narkomaniya təkcə bu günün problemi deyil, illərdir bəlkə, əsrlərdir insanlar zərərli vərdişlərlə mübarizə aparır. Hələ də qalib gəlməməsinin səbəbi mübarizə yolunun düzgün seçilməməsi və ya prosesin səmimi aparılmamasıdır”.

**Bu sözləri SİA-ya açıqlamasında psixoloq Əfsanə Rüstəmova** deyib. Hamı bir adam kimi anlamalı və başa düşməlidir ki, bu zərərlidir və ondan uzaq durmaq üçün istər mənəvi, istərsə də sosial mübarizə aparılmalıdır. Əgər buna bir biznes kimi baxsaq və kifayət qədər istifadəçisi olduğunu nəzərə alsaq hər keçən gündə istifadəçilərin artma ehtimalı çox olacaqdır. Narkotik alveri çox gəlirli biznes sayıla bilər və belə olan halda istifadəçi kimi yox, məhz biznes kimi kimlərəsə maraqlı gəlir. İnsanlara narkotikin pis olması fikri aşılamamalıyıq, çünki gördüyümüz kimi mənfəətli olan tərəf bu fikri təsdiqləməyəcək.



## Bəs məsələyə necə yanaşaq? Narkomaniya bizim əlimizdən nəyi alacaq?

Keyfiyyətli yaşamaq, sağlamlıq,uzun ömürlü xoşbəxt yaşamaq və s. Əlimizdən aldığı şeyləri itirəndə həyatımızda nə baş verəcək?

Hadisəyə biraz daha böyük pənrədən baxmağı təmin etmək lazımdır. Sadəcə bir nüansı pisləməklə biz qarşı tərəfə o vərdişin zərərli olduğunu tam göstərə bilməyəcəyik. Məsələn bütün günü desək ki, narkomaniya pisdir insanlar düşünəcək ki bu adam o şeyə qarşı nəsə bir problemi var ki o bütün günü onun haqqında danışır. Desək ki yaşamaq gözəldir, insan sərbəst, heçnədən asılı olmadan nəfəs ala bilər və bu onun ən böyük sərvətidir, artıq insanlar daim düşünməyə başlayacaqdır. Biz mübarizə üsul formasını dəyişsək, insanlara onlara dəyərli olan predmetlər üzərində mesaj verməyə çalışsaq, bütünlüklə həyatın motivinin gedişatını onlara anlatmaqla artıq zərər verəcək bütün vərdişlərdən kənarlaşmağa çalışacaqlar. Bir idealogiya ailədə, cəmiyyətdə, dövlətdə və dünyada olmalıdır ki, bundan uşaqlar da təsirlənsinlər.

Əgər ailənin, cəmiyyətin dövlətin idealogiyası sabit deyilsə, uşaqlar da bu qarmaqarışığın içində özlərinə uyğun doğrunu seçəcək və bu cür həyatlarına davam edəcəklər.



**Hüquqşünas Sahib Məmmədov** qeyd edir. Qanunvericiliyə görə narkotik vasitələrin qanunsuz dövriyyəsinə, satılmasına, becərilməsinə və saxlanmasına görə məsuliyyət nəzərdə tutulur. Təəssüflə qeyd olunmalıdır ki, bütün dünyada son 50 il ərzində daha çox gündəmdə olan problemlərdən biri də narkomaniya ilə mübarizədir. Artıq dünyada ən böyük dövriyyəsi olan transmilli cinayətlərdən biri silah alveri, sonra insan alveri üçüncüsü isə narkotik vasitələrin qanunsuz dövriyyəsidir. Buna qarşı mübarizə aparmaq yalnız inzibati cinayət yolla mümkün deyil. Kompleks tədbirlər həyata keçirilir, müxtəlif dövlət proqramları, ixtisaslaşmış dövlət komissiyası, polis orqanları fəaliyyət göstərir.

2017-ci ildə Azərbaycan Respublikasının Prezidentinin cəza sisteminin maniəsizləşdirilməsi ilə bağlı məlum sərəncamından sonra bir qədər yumşalma olmuşdur. Satış məqsədi olmadan qanunsuz olaraq narkotik maddələrin və yaxud psixatrop maddələrin şəxsi istehlak miqdarından artıq əldə edilməsinə görə saxlanmasına, hazırlanmasına, emal edilməsinə və ya daşınmasına görə bir ildən üç ilədək məhdudiyyət azadlıqdan məhrum etmənin məhdudlaşdırılması nəzərdə tutmuşdur. Sonrakı maddələrdə bu daha ağırlaşa-ağırlaşa gedir. Külli miqdarda olduqda artıq cəza 3 ildən 8 ilə qədər nəzərdə tutulur. Xüsusən azyaşlıların cəlb edilməsinə görə 234.3-1 maddəsi sonradan əlavə olunub. Yetkinlik yaşına çatmayan uşaqlara qanunsuz olaraq narkotik vasitələri və yaxudda psixotrop maddələri satmağa, habelə digər maddələrdə nəzərdə tutulan əməlləri təhsil və ya tibb, cəzaçəkmə müəssisələrində fəaliyyətə görə ağır cəza nəzərdə tutulur. Yəni yetkinlik yaşına çatmayanlara satmağa görə məsuliyyət bir qədər də ağırlaşır. Həmçinin Cinayət Məcəlləsinin 236-cı maddəsində narkotik vasitələrin və yaxud psixotrop maddələrin istehlakına təhrik etməyə görə cəza nəzərdə tutulur. Əgər təhrik olunan şəxs yetkinlik yaşına çatmayan şəxsdirsə bu zaman 5 ildən 10 ilədək azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır.

**Həkim-narkoloq Asif Kəngərli**nin sözlərinə görə gənclərin, yeniyetmələrin narkotik vasitələrə qurşanmasının səbəbi cəmiyyətdən, məktəbdən əvvəl ailədə axtarılmalıdır. Uşaqların həddindən çox ərköyün böyüdülməsi sonradan onların narkotik vasitə qəbuletmə ehtimalını artırır. Bunu həm tibbi ədəbiyyat, həm də təcrübələr göstərir. Gənclər, yeniyetmələr çox şeydən xəbərsizdirlər, əksər hallarda yaxşını pisdən ayıra bilmirlər. Buna görə də maarifləndirilmənin gücləndirilməsi lazımdır. Tütünçəkmə, alkoqolizm, narkomaniya və onların fəsadlarına dair əsərlər, məlumatlar orta məktəbdə tədris olunmalıdır. Bunu etməsək, hər hansı bir kardinal dəyişikliyə nail olmaq çətindir.



Həkim-narkoloq bildirib ki, narkotik vasitə qəbul edənlərin tam sağalması demək olar ki, mümkün deyil. Onların sadəcə olaraq yaxşılaşması var. Tam sağalma o zaman olar ki, xəstə özünü tamamilə normal hiss etsin. Onlarda depressiya, yuxu, iştaha pozulmaları, əhval düşkünlüyü zəif şəkildə olsa da ömrüboyu davam edir: "Müşahidələrimə görə, hər 10 nəfərdən 6-da müalicə müsbət nəticə verir. Burada həkim işin müəyyən hissəsini görə bilər. İşin digər bir qismi ailənin üzərinə düşür. Prosesin əksər hissəsi, haradasa 50-60 faizi xəstənin özündən asılıdır. Xəstə öz qarşısına məqsəd qoymayıbsa, nəticə də olmayacaq. Müalicə bitəndən sonra sağlam həyat tərzi keçirmək lazımdır. Beş il spirtli, o cümlədən energetik içki qəbulu olmaz. Təbii yeyəcək və içəcəklərə üstünlük verilməsi, siqaret çəkirsə, onu tərgitməsi tövsiyə olunur. İdman və hər hansı məşğuliyyət depressiyadan çıxmağa və bərpa olunmağa kömək edir”.

***Havar Şəfiyeva***

ARAŞDIRMA



# "Bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir"

**Azərbaycanın hər bir guşəsi gözəldir və tarixi onun əzəli torpağımızın keçdiyi şərəfli və qürurlu bir yoldan bizə soraqdır. 30 ilə yaxın işğal altında olan torpaqlarımızda 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərdən sonra qaldırılan üçrəngli bayrağımız tarixi torpaqlarımızda dalğalanır. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir.**

"Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Azərbaycanın hər bir yerində dalğalanan Dövlət Bayrağının Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra işğal altında olan torpaqlarda qaldırılacağına əminliyini bildirmişdi: "Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndində, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq". Zəfər tariximiz bizə bu qüruru yaşatdı. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Azərbaycan bayrağı işğaldan azad olunan torpaqlarımıza sancıldı. Şəhər, kənd və qəsəbələrimiz erməni işğalından azad edildi. Minlərlə şəhid verən torpaqlarımız bu gün yenidən qurulur, abadlıq-quruculuq işlərinin sürəti artır.

## ZABUX VƏ SUS KƏNDLƏRİNİN LAYİHƏLƏNDİRİLMƏSİ VƏ TİKİNTİSİNƏ İLKİN OLARAQ, 800,0 (SƏKKİZ YÜZ) MİN MANAT AYRILIB

"Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir" - deyə dövlət başçısı bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında" Sərəncamı işğaldan azad olunan ərazilərimizin tezliklə abadlaşacağını və öz torpaqlarından didərgin düşmüş minlərlə insanın öz dədə-baba yurduna tezliklə qayıdacağını özündə əks etdirir. Dövlət başçısının Sərəncamına əsasən, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 800,0 (səkkiz yüz) min manat ayrılıb.

## "MƏN HƏMİŞƏ DEYİRDİM Kİ, LAÇIN, KƏLBƏCƏR VƏ ŞUŞA AZƏRBAYCANA QAYITMASA, HEÇ BİR RAZILAŞMA OLA BİLMƏZ"

1 dekabr 2020-ci il tarixdə erməni işğalı altında olan son rayonumuz- Laçın Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının 10 noyabr tarixində imzaladığı Birgə Bəyanata uyğun olaraq, dinc yolla öz əsl sahibinə qaytarıldı. Qürur hissi ilə demək lazımdır ki, iyirmi səkkiz illik erməni işğalından azad olunan Laçın rayonunda yenidən üçrəngli şanlı Azərbaycan Bayrağı dalğalanır. Azərbaycanın ən böyük rayonlarından biri olan Laçının erməni işğalından azad edilməsi ölkəmizin ictimai-siyasi həyatında möhtəşəm və parlaq tarixi hadisəyə çevrildi. Cənab Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdi ki, mən həmişə deyirdim ki, Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qayıtmasa, heç bir razılaşma ola bilməz. Laçın tarixi keçmişi zəngin olan bir ərazidir. Laçın abidələri hələ eramızdan əvvəl I-II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə ediləbiləcək qədər dəyərli və nadir abidələrdəndirlər. 1828-ci il Rusiya-İran müharibələrindən sonra bağlanan Türkmənçay müqaviləsinə əsasən, bölgə Şimali Azərbaycanın tərkibində Rusiyaya qatılıb. Rusiyanın himayəsi altında Cənubi Qafqaza Osmanlı dövlətindən və İrandan ermənilərin kütləvi şəkildə köçürülüb məskunlaşdırılmasına başlandı. Ancaq Laçın bölgəsinə ermənilərin məskunlaşdırılması mümkün olmayıb. Azərbaycanda xanlıqlar ləğv edildikdən sonra, Laçın bölgəsi 1829-cu ildən yeni yaradılan Qarabağ əyalətinə qatılıb, 1868-ci ildən isə indiki Laçın yeni yaradılan Zəngəzur qəzasına qatılır. 1918-ci ildən 1922-ci ilədək isə Qarabağ quberniyasının tərkibində olmuşdur. Mənbələrdə göstərilir ki, 1905-1907 və 1914-1920-ci illərdə Laçının da daxil olduğu Zəngəzur bölgəsində silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində təxminən yarım milyon müsəlman həlak olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra da Qarabağı və Zəngəzuru mənimsəmək üçün ermənilərin ərazi iddiaları nəticəsində kütləvi qırğınlarla davam edir. Erməni komandanı Andronik nə yolla olursa-olsun öz silahlı qüvvələri ilə bərabər Gorus, Laçın, Şuşa istiqamətindən Qarabağa daxil olmaq, oranın erməni əhalisini Azərbaycan hökumətinə qarşı qaldırmaq, təxribatlar törətmək və bölgədə itaətsizlik yaratmaq istəyirdi. Bu məqsədlə Andronik bir neçə minlik ordu ilə Zabux kəndini keçərək, Laçın istiqamətində irəliləməyə başladı. Bu döyüşlər zamanı general Andronik demək olar ki, bütün qüvvəsini itirərək bir neçə nəfərlə güclə qaçmağa imkan tapdı. 1923-cü ildə Laçın və Abdallar kəndləri arasında kiçik bir şəhər salındı və qəza mərkəzi ora köçürüldü. Relyef və ora yaxın kəndin adı nəzərə alınmaqla Tağı Şahbazinin təşəbbüsü ilə şəhərə Laçın adı verildi.

## "LAÇIN RAYONU AZƏRBAYCANIN GƏLƏCƏK İQTİSADİ İNKİŞAFINDA MÜHÜM ROL OYNAYACAQ"

Qəza inzibati cəhətdən Kəlbəcər, Qoturlu, Kürdhacı, Qarıqışlaq, Həkəri (Muradxanlı) və Püsyan (Qubadlı) nahiyələrindən ibarət idi. 1930-cu ildə Azərbaycan SSR-də qəza inzibati ərazi vahidləri ləğv edilərək onların ərazisində rayonlar yaradıldı. Kürdüstan qəzası ərazisində yuxarıda qeyd edildiyi kimi 3 rayon - Laçın, Qubadlı və Kəlbəcər rayonları yaradıldı. Azərbaycanın qərb torpaqlarına sahib çıxaraq bu torpaqlar üzərində özlərinə dövlət quran ermənilər artıq Azərbaycana qarşı yeni, daha böyük ərazi iddiaları ilə çıxış etməyə başladılar. Onlar Qarabağın Ermənistana birləşdirilməsi məsələsini ortaya ataraq bir manea kimi Laçın rayonunu aradan götürməyin yollarını düşündülər. Sovetlər dönəmində ermənilər dəfələrlə Laçın rayonunun bir inzibati mərkəz kimi ləğvinə çalışsalar da, təşəbbüsləri baş tutmamışdı. Bunun əvəzində onlar 1970-1980-ci illərdə Güləbird, Cicimli, Malıbəy, Qarıqışlaq, Sadınlar və digər kəndlərin yüz hektarlarla pay torpaqlarını və bütövlükdə Qaragöl yaylağını mənimsəməyə nail oldular.1992-ci ildə Ermənistan tərəfindən işğal nəticəsində 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayonun 6 Milli Qəhrəmanı vardır. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçının səthi dağlıqdır və şimal hissəsi Qarabağ silsiləsinin cənub-qərb yamacında, şimalı Mıxtökən silsiləsinin cənub-şərq yamacında, cənub-qərbi Qarabağ yaylasındadır. Ən hündür nöqtəsi Qızılboğaz dağıdır. Çayları Həkəri və onun qollarıdır. Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biri olmaqla, ərazisi 1800 kvadratkilometrdir. Laçın strateji baxımdan əhəmiyyətli olduğu qədər iqtisadi və regional inkişaf baxımından da mühüm əhəmiyyətə malikdir. Bu iqtisadi rayon geniş təbii sərvətlərə və iqtisadi imkanlara, o cümlədən kənd təsərrüfatının inkişafı üçün münbit torpaq sahələrinə malikdir. Ərazinin mineral su yataqlı 8 yeraltı su yatağı mövcuddur. Laçın abidələri hələ eramızdan əvvəl I-II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə ediləbiləcək qədər dəyərli və nadir abidələrdəndirlər. Buranın təbiəti isə xüsusilə füsunkardır. Dövlət başçısı çıxışlarının birində bildirib ki, Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir: "Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda, işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağ ciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

Bütün bunlar rayonda geniş investisiya imkanları yaradır, kiçik və orta sahibkarlığın, turizmin inkişafı üçün geniş perspektivlər açır. Laçın ölkəmizdə digər iqtisadi rayonların da inkişafına öz töhfəsini verəcək. Cənab İlham Əliyevin bildirdiyi kimi, "Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın rayonu Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq. Laçın bizimdir! Qarabağ Azərbaycandır!".

***Zümrüd BAYRAMOVA***





# Qərbin işə düşən TƏXRİBAT MAŞINI

**Yenə də Ermənistanda suyu bulandırmaq cəhdləri müşahidə olunur. Brüssel görüşünün ardınca yaxın zamanda sülh müqaviləsi gözlənildiyi halda ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin İrəvana gəlməsi və təxribatlara yenidən rəvac verən ifadələr səsləndirməsi çox ciddi suallar doğurur. Pelosinin işğalçı ölkəyə dəstək ifadə edən mövqeyi təkcə erməni təəssübkeşliyi demək deyil, həm də gərginliyin davam etməsi üçün atılan addımdır və nəyə hesablandığı da diqqəti cəlb edir.**

Özünü demokratiyanın, ədalətin, insan haqlarının müdafiəçisi kimi gösərmək istəyən Amerika Birləşmiş Ştatlarının mövqeyi heç də gözlənilən sülh müqaviləsinin reallaşmasına rəvac vermir. İkicə il bundan əvvəl, daha dəqiq desək, müharibə yenicə bitdiyi zaman ermənilər indiki kimi iddialarla çıxış etmirdilər və əlbəttə ki, indi nə baş verdiyi hər kəsi düşündürür. Görəsən, niyə ermənilər bu şəkildə dəyişdilər və səbəb nədir? Cari il İyulun 15-də ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Bornsin İrəvana səfəri, özü də gözlənilməz səfəri də diqqəti cəlb edir. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Ermənistanda xüsusi xidmət orqanları ilə yox, məhz ermənin baş nazir Nikol Paşinyanla, eləcə də Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşdü və bu görüşün mahiyyəti də bəlli deyil, hələ üstəlik sirr olaraq da qalır. Amma sirr olaraq qalsa da bu görüşün ardınca baş verənlər müəyyən məqamlara aydınlıq gətirməyə imkan verir.

Məsələ burasındadır ki, Uilyam Bornsin İrəvana, özü də gözlənilməz səfərinin strateji xarakter daşıdığı özünü Ermənistanın törətdiyi 12-13 sentyabr tarixlərində büruzə verdi. Həmin o hərbi təxribatların ardınca Paşinyanın hökumət üzvləri ilə iclas keçirməsi, KTMT-yə, Rusiyaya, Fransa prezidentinə müraciət ünvanlaması, həmin məqamda ABŞ senatorlarının bir neçəsinin ölkəmiz əleyhinə çıxışlar etməsi, prezindent Makronun təşəbbüsü ilə BMT TŞ-da guya Azərbaycanın hücum etməsi barədə məsələnin müzakirəyə çıxarılması bir çox məsələləri qabarıq şəkildə üzə çıxardı. Təbii ki, burada Qərbin nümayişkəranə şəkildə xüsusi cənfəşanlığı müşahidə edilir. Düzdür, KTMT-nin də, Rusiyanın da ölkəmiz əleyhinə mövqeyində dəyişiklik görülmədi, bir növ, Ermənistan tərəfi istədiyi reaksiyanı ala bilmədi, amma tam aydın oldu ki, Ermənistanın da, Qərbin də məqsədi məsələni uzatmaq, strateji maraqları təmin etmək, bunun üçün də müəyyən addımlara rəvac verməkdir, hansıki bu, indi də Pelosinin mövqeyində özünü göstərir.

Hadisələrin gedişi həm erməni məkrinin, həm də Qərbin təxribat maşınının işə düşdüyündən xəbər verir. Ermənistan Parlamentinin spkerinin şəxsən KTMT haqqında dedikləri, bu qurumun ölkəsi üçün lazımsız olduğunu bəyan etməsi, bunu mətbuata belə açıq şəkildə bildirməsi təsadüfi deyildi. Bunun təsadüfi olmadığı özünü, Nensi Pelosinin İrəvana qəfil səfəri ilə dərhal sübut etdi. Nəzərə almaq lazımdır ki, Tayvan səfərinin ardınca Berlində olan Nensi Pelosi elə tədbirdən çıxıb Ermənistana gəlir. Özü də onun belə tələsik gəlişi və Ermənistan Parlamentinin spikerinin KTMT-nin onlar üçün lazımsız qurum olduğunu bəyan etməsindən sonra edilən səfəri təxribat maşınının işə düşməsini göstərir. O da diqqətdən yayınmamalıdır ki, ABŞ-ın təxribat maşınının sükanında oturan bu 82 yaşlı qoca qadın İrəvana gələr-gəlməz də dərhal Ermənistanı demokratik, sülhsevər, üstəlik firavan ölkə adlandırır. Maraqlıdır, 30 il qonşu ölkənin torpaqlarını işğal altında saxlayan, yeni torpaqları işğal etmək arzusu və niyyəti ilə dalbadal təxribatlara, terror aktlarına, separatçı hərəkətlərə əl atan ölkəni necə sülhsevər adandırmaq olar? Yaxud, Nensi qarı bilmirmi ki, bu işğalçı ölkədə demokratiya pərdəsi arxasında nələr baş verir, insanların haqları necə pozulur və ümumiyyətlə, Ermənistanda ifadə azadlığından, demokratiydan danışmaq gülüncdür? Demokratiya, sülhsevərlik bir tərəfə, ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri firavan Ermənistan deyəndə də utanmadı? Pelosi hansı firavan ölkədən danışır, səfalət içərisində inləyən Ermənistandanmı? Bəllidir ki, həqiqətləri bilə-bilə onları təhrif edərək, əksini söyləməyin, bəyan etməyin bir anlamı var, bu da ondan ibarətdir ki, Nensi Pelosi Paşinyan iqtidarını müdafiə etmək, anti-Azərbaycan mövqeyində olduğunu bəyan etmək üçün İrəvana səfər edib.

Daha çox diqqəti çəkən məqam isə, Nensi Pelosinin, ABŞ Konqresinin Nümayəndələr Palatası sədrinin İrəvana gəlişindən bir gün əvvəldən Rusiya yönümlü reklam lövhələrinin, "əbədi birlikdə" yazısı olan Putinin şəkillərinin ermənilər tərəfindən çıxarılması, zibilə atılmasıdır. ABŞ-ın təxribat maşınının sükanında oturan 82 yaşlı qadının gəlişi öncəsi Ermənistan cəmiyyətində yaradılan anti-Rusiya ajiotajı da təsadüfi deyildi, onun gəlişi zamanı Ukrayna bayraqlarının hava limanı yolunda ermənilərin əllərinə almaları da. Bütün bunlar ondan xəbər verir ki, əvvələ rəsmi İrəvan Pelosinin gələcəyini əvvəldən bilirdi və buna görə də Paşinyan hakimiyyəti xüsusi tərzdə ifadə verirdi. Digər tərəfdən isə, hadisələr onu göstərir ki, nümayəndəsini Ermənistana göndərən ABŞ rəsmilərinə xoş olsun deyə İrəvan dəridən-qabıqdan çıxır, deməli, məqsədli şəkildədir hər şey. ABŞ-ın təxribat maşınının sürücünün hövlnak İrəvana yollanmasının da sirri tez bir zamanda ortaya çıxacaq, eyni ilə Uilyam Bernsin İrəvana gəlişinin ardınca təxribatların törədilməsi ilə çıxdığı kimi. Yəni, xanım Pelosinin bu səfərinin ardınca ermənilərin yenə də hoqqa çıxaracaqları tam gözləniləndir və biz buna hazır olmalıyıq. Düzdür, ermənilərin təxribatları ilə nəyə isə nail olacağı artıq tamamilə mümkünsüzdür və onlar törətdikləri təxribatları zaman öz hərəkətlərinə görə artıqlaması ilə cavab alırlar, amma hər bir halda, itgilərimizin mümkün qədər az olmasını nəzərə alaraq daha ayıq-sayıq olmaq gərəkir.

Erməni hiyləsi, erməni məkri hər zaman olub və bu artıq çox böyük məcrada tətbiq olunmaqdadır və bunu da nəzərə almaq lazım gəlir. İndi ermənilər Rusiya-Ukrayna məsələsinin fonunda ukraynalılara edilən dəstəyi bir növ, gözə soxaraq həmin dəstəyin ermənilərə də göstərilməsinə nail olmaq istəyirlər. Tıxribatçılığı, terrorçuluğu, işğalçılığı dövlət siyasətinə çevirən Ermənistanın baş naziri Paşinyanın onlara heç bir ölkənin silah satmaması barədə gileylənməsi də xüsusilə fikirləri bir məntiqə kökləyir. Deməli, rəsmi İrəvan silah almaq niyyətindədir. Görəsən, bu arada, xüsusən də təslimiyyətinin ardınca Ermənistanın silah-sursat nəyinə lazım idi? Belə çıxır ki, Qərb öz təxribat maşınını artıq işə sala bilib və ermənilərin yenə də diqqətini təxribata yönəldib. Həll etməli olan məsələlərdən, sülh danışıqlarına hazırlıqdan, delimitasiya və demarkasiyadan yayınmaq, ən azından bunları uzatmaq üçün isə ermənilər vəd olunan yağlı tikələrə tez aldanırlar və bu dəfə də vəziyyətləri qarşılaşdıqları kimi olacaq.

Azərbaycan ərazidində, daha dəqiq desək, Xankəndidə erməni cəsarət edib mitinqlər keçirərək ölkəmizə yönəlik şuarlar səsləndirirsə, bu artıq həyəcan təbilidir. Növbəti təxribatlara hazırlıq barədə həyacan təbili. Azərbaycan ərazisində yaşayıb bu ölkəyə meydan oxumaq nə deməkdir? Özü də qorxaq erməninin müharibə məğlubiyyətinin ardınca, döyüş meydanını qoyub qaçmasının ardınca belə dırnaqarası "cəsarəti" hər şeydən xəbər verir. Əlalxüsus onu göstərir ki, Qərbin dəstəyinə əminlikləri artıb. Bizim üçün isə ən vacibi, təxribat maşınının işə düşməsi və buna hazırlığımızdır. Nensi Pelosinin gəlişinin ardınca yenə də bu maşının təsirinin özünü göstərə biləcəyi gözlənilləndir.

*İnam Hacıyev*

ŞƏRH + AKTUAL

# Rusiyada anti-Ermənistan əhval-ruhiyyəsində ABŞ faktoru

## Andrey Koryakovtsev: "Paşinyan hökuməti təxribatçılar hökumətidir"

Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi artmağa başladıqca, hətta Rusiyanın uzun illər erməniпərəstlikləri ilə seçilən siyasi analitikləri və teleaparıcıları belə eyni silahlı qarşı tərəfə, yəni Ermənistana tərəf yönəltməyə başlayıblar. Artıq sübut olunmağa başlayır ki, Ermənistanı ayaqda saxlayan, bu ölkənin çökməsinə izn verməyən Rusiya gec də olsa ayılıb və əslində, həqiqətin nə yerdə olduğunu öyrənməyə başlayıb. Xüsusilə, ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin İrəvan səfərinin ardınca mövcud vəziyyət daha da genişlənməyə başlayıb. Rusiyanın tanınmış siyasət adamları Paşinyan hökumətini hədəfə almaqla bütövlükdə aşkar erməni xislətinin nə demək olduğunu dərk edirlər.

### "Mövcud siyasətdə Ermənistanın qeyri-müstəqil dövlət olduğu görünməyə başlayır"

SİA xəbər verir ki, Rusiyanın tanınmış politoloqu, RF-nın Yeni cəmiyyət institutunun siyasi analitiki Andrey Koryakovtsev mövzu ilə bağlı maraqlı fikirlərini şərh edib. Onun sözlərinə görə, Ermənistanda anti-Rusiya meyillərinin sürətlə artması, habelə ölkənin KTMT-dən çıxması ehtimallarının mövcudluğu bilavasitə Paşinyan hökumətinin siyasətidir. "Paşinyan hökuməti təxribatçı hökumətidir", deyə bildirən politoloq hesab edir ki, onun təxribatları Rusiyaya və Azərbaycana qarşı yönəlib. SİTAT: "Mövcud siyasətdə Ermənistanın qeyri-müstəqil dövlət olduğu görünməyə başlayır. O, bununla özünün heç də rusiyapərəst loyallığı ilə ittiham edilməsi mümkün olmayan, lakin Rusiya ilə iş birliyində komfortluq hiss edən, müstəqil olan və müstəqil xarici siyasət aparan şərq qonşusundan fərqlənir. Anti-Rusiya düşüncəsi son vaxtlar erməni siyasətinin konstantasıdır və bu da mənim nəzərimcə erməni-azərbaycanlı münaqişəsində KTMT ilə əlaqəli deyil. Rusiya Paşinyan hökumətinin gözündə istənilən vəziyyətdə günahkar elan olunacaq".

### "Demokratiya ideyası artıq çoxdan, sovet vaxtlarından ABŞ üçün öz rəqiblərinə qarşı təxribatçılıq, qıcıq yaratmaq üçün ideoloji alətə çevrilib"

Nensi Pelosinin İrəvan səfərinə qədər özünün tvitter akkauntunda "İrəvan diktatura ilə demokratiya arasında seçim etməlidir" eyhamına və həmin eyham çərçivəsində ABŞ-ın Ermənistandan Rusiyanın təsiri altından çıxması çağırışına münasibətini bildirən Andrey Koryakovtsev qeyd edib ki, məhz bu çağırış həmin faktı təsdiq edir. "Demokratiya ideyası artıq çoxdan, sovet vaxtlarından ABŞ üçün öz rəqiblərinə qarşı təxribatçılıq, qıcıq yaratmaq üçün ideoloji alətə çevrilib", deyə o bildirib. Ermənistanın da bu oyuna gedib-getməyəcəyi sualına və gedəcəyi halda hansı nəticələrə gətirib-çıxaracağına da münasibət bildirən siyasətçiyə görə, Ermənistanın yaxın günlərdə KTMT-dən çıxmasına inanmadığını bildirib. "Hər halda KTMT onun xarici hücumlardan qorunması yönündə diplomatik və hərbi müdafiəsini təmin edir", deyən rusiyalı politoloqa görə bu siyasətin mahiyyəti təxribatdır və həmin təxribat Ermənistanın KTMT-dən çıxmasına təhrik kimi deyil, KTMT-yə təzyiq göstərilməsi üçün edilir.



### "Azərbaycan-Ermənistan sərhədlərindəki sonuncu situasiyada da Rusiya diplomatik səviyyədə çıxış etdi"

Pelosinin İrəvan səfərinə Moskvanın reaksiya göstərib-göstərməyəcəyinə gəlincə politoloq bildirib ki, ABŞ Rusiyanın Ukraynadakı hərbi əməliyyatlarını keçirərkən Cənubi Qafqazda yarana biləcək növbəti münaqişəyə daxil olmasını çox istəyir. SİTAT: "Moskva bundan maksimum yayınacaq. Azərbaycan-Ermənistan sərhədlərindəki sonuncu situasiyada da Rusiya diplomatik səviyyədə çıxış etdi. Və bunu da Pelosinin səfərinə reaksiya kimi hesab etmək olar. Mövcud vəziyyətdə bu, ən adekvat seçimdir".

Andrey Koryakovtsev ABŞ-dan fərqli olaraq Fransanın mövqeyinin birmənalı olmasına, Parisin Türkiyənin Azərbaycana dəstəyindən narahatlıq keçirməsinə, Ankaranın regiondakı təsirinin artmasına və gücləndirməsinə münasibətini açıqlamaqla yanaşı, ABŞ-ın Ermənistan-Azərbaycan arasında haradasa müəyyən balans saxlaması cəhdlərinə, ancaq buna baxmayaraq, Azərbaycanın ünvanına ölçüsüz fikirlərin səsləndirməsinə də fikir bildirib. Onun sözlərinə görə, əgər ABŞ Azərbaycana qarşı aşırı və əsassız münasibət nümayiş etdirirsə, amma buna rəğmən Ermənistanla Azərbaycan arasında balans saxlamağa çalışdığını bəyan edirsə, onda buradan bir məsələ hasil etmək olar: "ABŞ-ın praktiki addımları onların bəyannamələri ilə üst-üstə düşmür. Bu isə təxribatçı siyasət yürütməkdir ki, amerikalılar erməni xalqına və digər başqa postsovet ölkələrinə sırıyıblar. Mövcud siyasətdə isə suveren ölkələr yalnız bir addımı ata bilərlər: özlərinin milli maraqlarını qorumaq və müdafiə etmək".

*Rövşən RƏSULOV*





# Onlar Şuşadan danışırdılar...

## JURNALİSTİN QEYDLƏRİ

**Nədənsə Şuşanın adı gələndə adamın damarlarında qanı coşur, desəm, hamının bu fikirdə olduğunu söyləyəcəyinə əminəm. Hələ Şuşadan söhbət düşəndə isə, necə deyərlər, əlində yağın daşsa belə, ta durub gedə bilmirsən, həmin söhbəti sevə-sevə sonadək dinləyirsən. Elə ötən həftənin bazar günü televizorun idarəetmə pultu ilə kanalları gəzərkən ölkəmizin televiziya kanallarından birində-atv kanalında Şuşa ilə bağlı bir verilişin yayımlandığını gördüm və ta o kanaldan ayrıla bilmədim. Şuşa fatehləri-hərbçilərimiz Şuşanı necə azad etmələrindən danışırdılar. Söhbətlər o qədər maraqlı idi ki, mənə elə gəlirdi ki, nəfəs almadan dinləyirəm. Televizor otağın pəncərəsinə yaxın bir yerdə yerləşdiyindən qalxıb pəncərəni də bağladım ki, bayırdan gələn səs bu gözəl söhbətin rayihəsini qaçırar birdən.**

Onlar Şuşadan danışırdılar, Şuşanı düşmənin caynaqlarından necə azad etdiklərindən, Şuşa yolunda çəkilən cəfalardan, Şuşa uğrunda döyüşən qəhrəmanlardan, Şuşa fatehlərindən, Şuşa şəhidlərindən, Şuşa möcüzələrindən danışırdılar...

### Şuşa qüruru

Hərbçilərimiz Şuşanın azad olunmasından danışarkən yaşadıqları qürur hissini teztez vurğulayırdılar. Niyə də vurğulamasınlar ki? Axı Şuşa Azərbaycanın göz bəbəyidir. Şuşa Qarabağın tacıdır. Şuşasız Qarabağı təsəvvür etməkmi olar? Bu ulu Yaradanın xalqımıza bəxş etdiyi gözəlliklər diyarı, sözün həqiqi mənasında, bir möcüzədir. Təbiətin bütün gözəlliklərinin cəmləşdiyi bir məkandır. Dumanı çiskininə qarışan, dağlarla qoyun-qoyuna olan Şuşa Azərbaycanın ən dilbər guşələrindən biridir. Dağları, şiş qayaları ilə yaşıl, allı-güllü çəmənləri sanki igid oğullarla nazlı qızlarımızın təcəssümüdür. Xarıbülbülü kimi. Bülbüllə gülün sevdasından yaranan xarıbülbül kimi. Şuşanın rəmzi olan, ancaq Şuşada yetişən, bitən, bənzəri olmayan xarıbülbül kimi.

Onlar Şuşaya yaxınlaşdıqca onun təbiətinə vurğunluqlarından danışırdılar. Axı Şuşanı görməmişdilər. Onların ata-babaları Birinci Vətən Müharibəsində Şuşa uğrunda döyüşəndə, lakin o dövrkü bədnam rəhbərlərin bütün Qarabağ kimi, Şuşanı da düşmənə satmaları səbəbindən onu azad edə bilməyəndə bu fatehlər uşaq, yeniyetmə idilər. Onlar Şuşa haqqında o döyüşlərdən sağ-salamat qayıda bilən atalarından eşitmişdilər. Bir də Şuşa haqqında kitablardan oxumuş, Şuşanı yalnız televiziya kanallarından görə bilmişdilər.

Onlar Şuşanı ilk dəfə onu azad edərkən görürdülər. Onlar bu möcüzəli təbiət, bu füsunkarlıq qarşısında heyran qaldıqlarını bildirirdilər. Hələ Şuşa azad olunanda payız idi, gör onun baharı necə olur... Lakin Şuşa 30 ilə yaxın idi ki, baharı özünə yaxın buraxmırdı. O payızla, qışla sirdaş, yoldaş olmuşdu. Şuşa özünə söz vermişdi ki, doğması gələndə bahara qoynunu açacaq. Övladları, oğulları gələndə, onu düşməndən geri alanda qara yaylığını başından açıb, xarıbülbüllü kəlağayısını salacaq başına. Əynindən qara libasını çıxarıb yaşıl ətəyini, qırmızı köynəyini yenidən geyinəcəkdir.

Şuşanın dağlarının dumanı da ərşə çəkilmişdi. Çünki Şuşa gözəl görünmək istəyəndə dumanını endirirdi. 30 ilə yaxın idi ki, bu çən, bu dumanı da bağrına çəkib gizlətmişdi Şuşa. Göstərmirdi düşmənə. Hüsnünün bütün gözəllikləri kimi, duman-çənini də gizlətmişdi.

### Şuşanın möcüzəli dumanı

Hərbçilərimiz danışırdılar ki, biz Şuşaya yaxınlaşarkən düşmən artıq bu gözəl məkanın əlindən getdiyi üçün vəhşiyə çevrilmişdi. Bütün variantlardan istifadə edib Şuşanı əldən verməməyə çalışırdılar. Hərbçilərimiz Şuşaya girəndə qəfildən onlar olan əraziyə duman çöküb. Bu, sanki bir möcüzə olub. Və bu duman onlara son əməliyyatı uğurla həyata keçirməyə şərait yaradıb. Artıq duman çəkiləndə Azərbaycanın üçrəngli bayrağı Şuşada dalğalanırmış.

Bəli, bir vaxtlar Şuşanın dumanını da qısqanıb bu dumanı başqa səmtə yozanlar, Şuşanın dumanlı dağları ilə bağlı yazılan mahnının sözlərini dəyişdirməyə belə çalışanlar bu dumanın təbii duman, heç kimin istəyi olmadan yaranan duman olduğunu dərk etməmişlər bəlkə də. Bəlkə də çox yaxşı dərk etmişlər. Lakin duman sözü onları yaman qorxudubmuş, bu səbəbdən də ondan bəhs edilməsini istəməmişlər. Çünki onlara görə bu duman başqa dumanların mənasını təzahür etdirirmiş özündə.

Lakin duman Şuşanın gözəlliyinin örpəyidir, onun yaşmağıdır. Hüsnünü lazım olan anlarda yadlardan gizlətməsi üçün ən gözəl vasitəsidir əlində. Bu duman sən demə həm də bir mübarizə imiş. İkinci Vətən Müharibəsində hərbçilərimizin əməliyyatına yardım edən mübariz duman. Dumanın bir anda gəlməsini haqqın dərgahından haqq tərəfində olanlara göndərilən bir kömək kimi də dəyərləndirmək olar. Çünki o, bir anın içində gəlmiş, çökmüş və əməliyyat başa çatandan sonra çəkilib getmişdir ki, Azərbaycan bayrağı görünsün, Şuşanın azadlığı elan olunsun.

Onlar danışırdılar ki, ən böyük arzuları həm də Şuşada azan verməк imiş. Bu da bir təsadüf olub ki, Şuşanın azad olunması günorta saatlarına təsadüf edib. Şuşa ordumuzun əlində olanda günorta namazı vaxtı olub və onlar bu namazın azanını verməyə nail olublar.

Ardı Səh. 12



# Onlar Şuşadan danışırdılar...

Əvvəli Səh. 11

Bir-birindən maraqlı söhbətlər, necə deyərlər, elə bil adamı televizor qarşısına kilidləyirdi. Həqiqətən də Şuşa əməliyyatı çox böyük, çətin, lakin bir o qədər də şərəfli bir əməliyyat olub. Əlbəyaxa döyüşlərdən, yoldaşlarının şəhid olmasından, yarlılara göstərilən yardımlardan danışan hərbçilərimiz bu söhbətləri bəzən gözləri yaşla dolmuş halda, bəzən nəfəslərinin boğazlarında düyünləndiyi vəziyyətdə, bəzən isə tez-tez köks ötürməklə danışırdılar. Danışılanlardan gün kimi aydın olurdu ki, Şuşa əməliyyatı dünya tarixində baş verən azsaylı hadisələrdəndir.

Şuşa əməliyyatı hərbçilərimizin adını tariximizin şanlı səhifələrinə yazdı. Onların qəhrəmanlığı qarşısında ermənilərin qorxaqlığı, dabanlarına tüpürüb qaçmaları Azərbaycan igidlərinin gücü ilə yanaşı, onların ötən illər ərzində yetişdirilməsi, hərbin sirlərinə yaxından bələd olmalarının da göstəricisi idi. Ölkəmizdə gənclərin vətənpərvər ruhda böyüdülməsi, onların idmanın müxtəlif növlərinə cəlb edilməsi, hərb sahəsinin inkişafına ayrılan vəsait, hərbçilərimizin təhsilinə göstərilən qayğı, onların xüsusi kurslarda təlimlər keçməsi Şuşa əməliyyatında özünü açıq şəkildə göstərdi. Bu barədə ölkəmizin başçısı deyir: "Şuşa qalasına dırmaşmaq, təkcə Daşaltıdan Şuşaya piyada getmək, necə deyərlər, böyük sınaqdır. Amma sənin üzərinə avtomatlardan, pulemyotlardan, tanklardan atəş yağdırılırsa, mənəvi və fiziki ruh yüksəkliyi lazımdır. Bu, mənəvi və fiziki ruhun birliyidir. Bəs əgər bizim gənclər hazırlıqsız olsaydı, əgər onlar fiziki cəhətdən zəif olsaydı, bacarardılarmı? Bacarmazdılar. Ona görə idman bu deməkdir. Dinc həyatda da hökmən lazımdır, hökmən".





Bəli, ötən illərdə ölkəmizdə yetişdirilən gənclərin tərbiyəsində vətənpərvərliyin xüsusi xətt təşkil etməsini, onlara torpaq, Vətən sevgisinin yetərincə aşılanmasının nəticəsini Vətən müharibəsində bütün dünya gördü. Gördü ki, Vətəni, torpağı canından əziz tutan gənclər necə böyük fədakarlıqla Ali Baş Komandanın əmrlərini yerinə yetirib, namus və şərəfimiz olan torpaqları düşməndən azad etdilər.

## Şuşa hədiyyəsi

Hərbçilərimizin böyük coşqu, həyəcan, məhəbbət, hünər və cəsarət dolu söhbətləri bir anda Şuşanı gətirdi gözlərim önünə. Onların söhbətində Şuşanın gözəl təbiəti, uca dağların sinəsinə pərçimlənmiş hüsnü, gözəlliyi, əyilməzliyi o qədər heyrətamiz ifadə olunurdu ki, adam özünü sanki bir filmə baxırmış kimi təsəvvür edirdi.

Həqiqətən də çox maraqla danışırdılar onlar Şuşadan. Bir anlığa düşünəndə ki, bu barədə bir film çəkilib, bu filmə insanlar baxır, hərbçilərimizin hünəri, vətənpərvərliyi ilə böyüklü-kiçikli hər kəs tanış olur, bunu çox arzu etdim. Onların söhbəti əsasında gözəl ssenarilər yazıla, filmlər çəkilə bilər.

Hərbçilərimizin söhbətində Şuşanın necə böyük əziyyətlə, zəhmətlə xalqımıza yenidən bəxş edildiyi ehtiva olunurdu. Həqiqətən Şuşa-coğrafi mövqeyinə görə xüsusilik təşkil edən bu təbiət gözəli alınmaz qaladır. 1990-cı illərdə düşmən onu ala bilməzdi, əgər o, satılmasaydı. 2020-ci ildə isə onu düşməndən almaq da asan məsələ deyildi. Çünki onlar 30 ildə Şuşanın bütün coğrafiyasını yaxından öyrənmiş, onu necə müdafiə etməyin, eləcə saxlamağın sirlərini mənimsəmişdilər. Lakin ordumuzun böyük bacarığı qarşısında görünür ki, düşmən dərsini yaxşı öyrənməyibmiş.

Şuşa 2020-ci ildə xalqımıza Ali Baş Komandanımızın və ordumuzun yenidən bəxş etdiyi ərməğan oldu. Yəni bir xalq üçün bundan böyük hədiyyə ola bilməzdi. 30 il Şuşasız qalan, qaçqın, köçkün, didərgin statusu ilə ölkəmizin müxtəlif ərazilərində məskunlaşan, Birinci Vətən Müharibəsindən sonra - köçkünlüyün ilk illərində olmazın əzab-əziyyəti ilə qarşılaşan, torpaq həsrəti, yurd hicranı yaşayan şuşalılar üçün bundan böyük hədiyyə ola bilməzdi. Uzun illər yurd həsrətlindən alışıb-yanan ata-analarını elə bu səbəblə itirən insanlar üçün Şuşa yenidən dünyaya gəlmiş, yaranmış bir şəhər oldu. Çünki onların əzizlərinin ruhu şad oldu. Həm şəhərdən silah gücünə çıxarılarkən qəbiristanlıqlarda uyuyan, həm də köçkünlükdə dünyasını dəyişənlərin hər birinin ruhu şad oldu.

## Şuşa sevinci

Hərbçilərimiz Ali Baş Komandanımızın Şuşanın azadlığı ilə bağlı xalqa müraciətinin qürurunu necə yaşadıqlarından da danışırdılar.

8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bəli, həm hərbçilərimiz, həm də hər birimiz üçün qürur, böyük sevincdir ki, 28 il əvvəlki 8-in üzərindən 28 il sonrakı 8 xətt çəkdi. Şuşa əbədiyyən Azərbaycana-öz doğma anasına qaytarıldı. Artıq qovuşub iki doğma. Onlar indi Azərbaycan bayrağını çiyinlərinə salıb Şuşanın ən uca zirvəsində oturub bir-biri ilə ötənlərdən söhbət edir, biçib-tikəcəkləri yeni qırmızı köynəklərdən, yaşıl ətəklərdən, mavi kələğayılardan danışırlar.

Şuşanın azadlığından sonra Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalının keçirilməsi düşmənin bağrına dağ çəkdi. Azərbaycan musiqisinin heyrətamiz səsi dağlarına-daşlarına yayıldıqca elə bil oyandı, təşnəsi olduğu bu səslə sanki özünə qayıtdı Şuşa. Azərbaycan musiqisinə göylərdə quşlar dayanıb qulaq asırdı. Axı onlar da bu səsə həsrət idilər. Bu səs düşmənin qulağına yara oldu. Bu səs Cıdır düzündən düşmənin murdar ayaqlarının izlərini sildi.

Daha sonra Molla Pənah Vaqifin muzeyməqbərə kompleksinin açılışı, "Vaqıf Poeziya Günləri" nin keçirilməsi, Natəvanın bulağının bərpası, Şuşaya yol çəkilməsi, elektrik enerjisi ilə təminatının yaxılaşdırılması, Şuşanın Dünya Azərbaycanlılarının V Qurultayına ev sahibliyi etməsi və digər tədbirlərin hər biri yaxınlıqdakı düşmənin göz dağına çevrildi.

Şuşanın Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsi, bu ilin onun ili olması bizim qürurumuz, düşməninsə ölümüdür.

Ey Qarabağın baş tacı, bundan sonra ta sən hər zaman qürurla yaşayacaqsan. Çünki bu gün dünyanın bəhs etdiyi Azərbaycanın bir yurdusan. Çünki sənin arxanda Ali Baş Komandanımız və Milli Ordumuz dayanır. Nə qədər ki, Azərbaycan var, sənin hər zaman üzün güləcək, Şuşa. Çünki bütün torpaqlarımız qalib ölkənin qoruması altındadır.

***Mətanət MƏMMƏDOVA***

**Məzar, yaxud qəbir insanların ölərkən basdırıldığı yerdir. Məzarların toplu olaraq olduğu yer isə məzarlıq adlanır. Qəbrin iki növu var: kurqan və küp qəbirlər.**



# Qəbirlər niyə hazır qazılıb saxlanılır?



Son günlər sıx-sıx müşahidə olunan hallardan biri hazır məzarların qazılıb saxlanması, yaxud satılmasıdır. Bundan əlavə qəbirstanlıqlarda hündür boylu, qara və ya müxtəlif rənglərlə bəzədilmiş, sahibinin böyük fotolarını özündə əks etdirən məzar daşlarına da rast gəlinir. Bəs islam dinində bu məsələlərə necə baxılır? SİA mövzu ilə bağlı sosioloq, din xadimi və ekspertlərin fikirlərini öyrənib.

Qeyd edək ki, 29.12.2017-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə "Bələdiyyələrin statusu haqqında" Qanunda dəyişiklik edilərək qəbiristanlıqların saxlanılması, idarə olunması, köçürülməsi ilə bağlı bələdiyyələrə əlavə səlahiyyətlər verilmişdir. Həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 yanvar tarixli 1789 nömrəli Fərmanının 3-cü hissəsinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı ilə "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları" (bundan sonra - Qaydalar) təsdiq edilmişdir.

**ARAŞDIRMA**

Qonşu qəbir yerlərinin əvvəlcədən rezervasiyasına yalnız dəfn edilmiş şəxsin ərinin (arvadının) yazılı müraciəti əsasında yol verilir. Qəbiristanlığın müdiriyyəti rezervasiya olunmuş qəbir yeri və onu rezervasiya etmiş ər (arvad) barədə məlumatı (soyadı, adı, atasının adı və olduğu halda fərdi idenfikasiya nömrəsi) dəfnlərin qeydiyyat kitabına və dəfnlərin vahid dövlət reyestrə daxil etməlidir.

Qeyd: Qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulması ilə bağlı 2018-ci il 30 oktyabr tarixli 1307-VQD nömrəli Qanunla Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə aşağıdakı məzmunda yeni maddə əlavə edilmişdir:

"Maddə 516-1. Qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulması

516-1.1. Dəfn barədə məlumatın dəfnlərin vahid reyestrində yerləşdirilməməsinə və ya vaxtında yerləşdirilməməsinə görə - vəzifəli şəxslər yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

516-1.2. Qəbiristanlıqların qorunması tələblərinin, habelə dəfnlərin təşkili zamanı sanitariya-gigiyena normalarının pozulmasına görə - fiziki şəxslər iyirmi manatdan əlli manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

516-1.3. Qəbir yerlərinin rezervasiyası tələblərinin pozulması, dəfnə icazə verilməyən ərazilərdə dəfnlərin həyata keçirilməsinə görə - beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.".

516-1.1-ci və 516-1.3-cü maddələrdə (qəbir yerlərinin rezervasiyası tələblərinin pozulmasına münasibətdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin vəzifəli şəxsləri tərəfindən, 516-1.2-ci maddələrdə nəzərdə tutulmuş inzibati xəta (dəfnlərin təşkili zamanı sanitariya-gigiyena normalarının pozulmasına münasibətdə) haqqında işlər üzrə isə protokol Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin vəzifəli şəxsləri tərəfindən tərtib olunur.



**Hacı Mir Rahib Babayev:** "İnsanın özünə öncədən qəbir qazdırması qadağan edilməsə də, bu düzgün də hesab edilmir. Çünki ölüm Allahın işidir, bəlkə elə yerdə öləcəksən, heç qazdırdığın qəbirdə dəfn olunmaq imkanın olmayacaq. Heç kəs harada öləcəyini bilməz! Allah-Təala Qurani-Kərimdə belə buyurur.

Mümkündür ki, İnsan yalnız ömrünün sonlarında, xəstə olduğu vaxt artıq hiss edəndə ki, ölümü yaxınlaşır, onda yer müəyyənləşdirə bilər.

Amma 10-15 il öncədən belə qəbir yerinin seçilməsi düzgün deyil. Bizlərdə isə qəbir yerləri alırlar və bu da qaydalara uyğun hesab edilmir".

**Hüquqşünas Fariz Əkbərov:** "Bəzi İslam ölkələrində olduğu kimi, ölkəmizdə də öncədən qəbir yeri götürmək sanki bir



adət halını alıb. İnsanlar hələ sağ ikən, heç bir xəstəliyə tutulmadıqları və nə zaman öləcəklərini bilmədikləri halda qəbir yeri götürüb, qazdırırlar.

Müsəlman adət ənənələrinə görə qəbir yerlərinin satılması doğru deyil. Bu gün Azərbaycanda qəbir yerlərinin satılması ilə bağlı qanun yoxdur. Ancaq digər hallarda qəbir yerinin öncədən tutulması qadağan deyil.

Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Qəbiristanlıqların salınması və idarə olunması Qaydalarının 17.2-18.3 bəndlərində deyilir ki, qəbirləri ödənişsiz və əvvəlcədən rezevrasiya edilə bilər.

17.2 Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında olan və ya yaşayan, habelə qaçqın statusu alan əcnəbi və ya vətəndaşlığı olmayan və kimsəsiz şəxslərin dəfn olunması üçün qəbir yerləri qəbiristanlığın müdiriyyəti tərəfindən ödənişsiz ayrılır.

18.3. Qəbiristanlığın müdiriyyəti rezervasiya olunmuş qəbir yeri və onu rezervasiya etmiş ər (arvad) barədə məlumatı (soyadı, adı, atasının adı və olduğu halda fərdi idenfikasiya



nömrəsi) dəfnlərin qeydiyyat kitabına və dəfnlərin vahid dövlət reyestrə daxil etməlidir".

**Sosioloq Əhməd Qəşəmoğlu:** "Qəbirlərin qazılıb hazır satılması təbii ki, düzgün addım deyil. Mənim öz tanışlarım arasında da 10 il bundan öncədən özünə qəbir yeri alanlar var. Qeyd edim ki, 10 il bundan öncə Xırdalan ərazisində qəbir yerlərini 3 minə satırdılar.

İslam dinində öncədən qəbir qazıb hazır saxlamaq düzgün dəyərləndirilmir. Bəs, bu hadisə nədən qaynaqlanır? Onun günahı insanlarda deyil. Əhalinin niyə belə davrandığının səbəbini axtarmaq lazımdır. Çünki ölkədə qəbiristanlıq məsələsi qanunsuz gəlir mənbəyinə çevrilib. Bu 30-40 ildir ki, belədir. Əgər qəbir yeri satılırsa, artıq o da daşınmaz əmlak hesab olunur.

Bizim xalq ailə qəbiristanlığını sevir. Yəni, ailə üzvləri birlikdə dəfn olunsun. Bunları da nəzərə almaq lazımdır. Sadəcə bu sahədə bir sistem olmalıdır. İnsanlar arxayın olmalıdır ki, öləndə havada qalmayacaqlar".

***Ayşən Vəli***

ŞƏRH+AKTUAL

# Etinasızlıq Ermənistanın fəlakətə açılan qapısına çevrilir

**Vaqe Ovannisyan: "Müharibə İrəvandan iki saatlıq məsafədə baş verə bilər"**



Maraqlıdır ki, Ermənistan bir tərəfdən müharibə xofu və qorxusu ilə yaşayır, digər tərəfdən isə müharibəyə təhrik edən addımları ilə regiondakı vəziyyəti müxtəlif təxribatçı əməlləri ilə gərginləşdirməyə çalışır. Bir-birinə təzad olan bu iki amil isə erməni siyasi-ictimai rəyinin hələ də yekun nəticəyə gəlmək imkanında olmadığını isbatlayır. Lakin fakt budur ki, növbəti eskalasiya mümkünlüyü Ermənistan ictimaiyyətinin gündəmində birinci yerdə qalmaqda davam edir.

**"Aparıcı fəlsəfi müzakirələrdə mövcud olan biganəliyi anlamıram"**

"Əgər müharibə baş verərsə, o İrəvandan iki saatlıq məsafədə olacaq. Və belə bir vəziyyətdə mən erməni ictimaiyyətində, siyasi elitada, hakimiyyətdə, müxalifətdə, aparıcı fəlsəfi müzakirələrdə mövcud olan biganəliyi anlamıram. Sanki bizim nə ilə məşğul olmağımız aydın deyil". SİA xəbər verir ki, bu fikirləri news.am saytına sabiq deputat, "Alternativ layihə" ekspertlər qrupunun təmsilçisi Vaqe Ovannisyan bildirib. Onun sözlərinə görə, ictimai rəy üç qrupa bölünüb: "Bir hissəsi sənədlərin imzalanması tərəfdarıdır, başqa yarısı buna qəti etiraz edənlərdir və heç kim soruşmur ki, hansı söhbət hansı sənəddən gedir, onun məzmunu nədən ibarətdir və sənəd imzalansa, yaxud imzalanmasa nə baş verəcək? Digər istiqamət isə dəhlizin açılması və ona qarşı çıxanlardır və bir daha nəticəsizlik özünü göstərir - sıfır həddi. Dəhliz nədən bəhs edir, o bizə nə verəcək, ya da verməyəcək? Və üçüncü qrup - onlar panikaçıdırlar ki, bəs qoymayın, sərhəddə 200 minlik türk ordusu dayanıb və indi daxil olacaqlar, hazırlaşın", deyə iddialar irəli sürürlər.

**"Əgər müharibə baş versə onlar istədiklərini əldə edəcəklər, bəlkə onların son hədəfləri İrəvandır?"**

Bunları izah edən erməni eksperti əlavə edib ki, o və başqaları dövlətçilik düşüncəsi ilə məşğul olmurlar, erməni elitası isə bu gün sadəcə qeybət edirlər: "O barədə qeybət edirik ki, bizi müharibəyə çəkəcəklərmi, ölkəmiz Suriyaya dönəcək ya dönməyəcək? Belə olmur, əgər biz dövlətə sahib olan xalqıqsa onda problemlərə dövlətçilik ölçüsündə baxmalıyıq. Əgər müharibə təhlükəsi varsa, onda biz bunun qarşısını almaq üçün nə edirik? Əgər müharibə baş versə onlar (Azərbaycan-R.R.) istədiklərini əldə edəcəklər, bəlkə onların son hədəfləri İrəvandır? Əgər kimsə onları saxlamasa başqa nə olmalıdır ki? Müharibənin olmaması üçün hər şey etmək lazımdır və bu da dövlətçilik düşüncəsidir. Qeyriləri isə fatalistik mükamilələrdir".

**"Ölkəni kəsimə aparılan donuz kimi saxlamazlar"**

Vaqe Ovannisyan fikirlərini davam etdirərək onu daha geniş şəkildə izah etməyə çalışır: "İrəvandan 2 saatlıq məsafə nə deməkdir? Bu, dövlətçilik üçün real təhlükədir. 44 günlük müharibə zamanı binaların girişlərində bomba sığınacaqlarının və zirzəmilərinin siyahıları vurulmuşdu, lakin 5 gün sonra insanlar bütün bunları unutdular".

Ermənistan parlamentinin sabiq deputatı əlavə edib ki, ictimai rəydə belə bir düşüncə gəzir ki, bu geosiyasi oyundur və bizdən asılı olan heç nə yoxdur: "Ölkəni kəsimə aparılan donuz kimi saxlamazlar. Burada 3 milyon insan yaşayır, burada biz, bizim uşaqlar, bizim ailələr var, bura bizim vətənimizdir ki, onu avantüra elementinə çevirməməliyik. Əgər Rusiya ilə Qərb arasında barrikadalar mövcuddursa bu, Ukraynadakı müharibədən sonra baş verdi - bütün bunlar mövcuddur, amma dövlət, həmçinin hökumətə bağlı olmayan elitalar ona görə mövcuddurlar ki, ölkəni belə macəralardan qorusunlar. Bizim işimiz bu iki qütbün arasına düşməməkdən ibarət idi. Bunun üçün hazırkı dövrə qədər bir çox imkanlarımız olub, indi də bu imkanlar var, halbuki son həftələrdə öz situasiyamızı daha da çətinləşdirmişik".

Ovannisyan hələ də Ermənistanın vaxtının qaldığını bildirib və bunun çox mühüm bir məsələ olduğunu qeyd edib: "Bizim hələ ki, vaxtımız var və özündə məsuliyyətlik hiss edən xadimlər, ictimai təbəqələr həqiqətən də konsolidasiyaya gəliblər. Biz bir yerdə işləməliyik və nəyi isə öz biliyimizin köməyi ilə dəyişməliyik. Başqa heç kimə arxalanmağa ehtiyac yoxdur. Bu, hazırda mövcud olan Ermənistanda baş verən avantüradır. Etinasızlıq Ermənistanın fəlakətə açılan qapısına çevrilir".

*Rövşən RƏSULOV*

## Antimilli ünsürlər üçün xalq, millət, Vətən anlayışı yoxdur



*Həbib Misirov, YAP Kəlbəcər rayon təşkilatının sədri*

Vətən müharibəsindən sonra Azərbaycanın bölgədə yaratdığı yeni siyasi reallıqlar, azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işləri, həyata keçirilən tədbirlər və irimiqyaslı layihələr bu gün bütün dünyanın diqqətini ölkəmizə yönəldib.

Bu gün Azərbaycana qarşı düşmən mövqedə dayanan, regionun liderinə, söz sahibi olan dövlətinə çevrilməyimizi görmək istəməyən xarici dairələr öz məkrli planlarını həyata keçirmək üçün müxtəlif üsullara əl atırlar. İnkarçı müxalifət isə, məhz belə dairələrlə əməkdaşlığa can ataraq ölkəmizin milli maraqlarını satmaqla məşğuldur. Zaman-zaman onların bu cür əməlləri ifşa edilib.

Məlum olduğu kimi, son illər Azərbaycana qarşı xaricdən müxtəlif istiqamətlərdə qarayaxma kampaniyaları aparılır. Bu qarayaxmalar bu gün də davam etməkdədir.

Azərbaycana qarşı aparılan oyunlarda həm erməni lobbisi, eyni zamanda, erməni olmayan antiazərbaycan qüvvələr kifayət qədər fəallıq nümayiş etdirirlər. Çox təəssüflər olsun ki, bir neçə səbatsız azərbaycanlılar həmin qüvvələrin təsir dairəsinə düşmüşdür və eyni zamanda bütün bu faktlar sübut edir ki, antimilli ünsürlər üçün xalq, millət, Vətən anlayışı yoxdur.

Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu xarici və daxili siyasətini, eyni zamanda, son günlər Ermənistanın növbəti təxribatının qarşını almaq üçün müzəffər ordumuzun həyata keçirdiyi hərbi əməliyyatlara qarşı aparılan açıq təxribat cəhdləri onu göstərir ki, bu qaragüruhçu dəstələr müharibədən sonra bizim qələbəmizi hələ də həzm edə bilmir və dəfələrlə bu qələbəyə kölgə salmaq üçün müxtəlif vasitələrdən, o cümlədən şəhid ailələrindən, qazilərdən istifadə etmək istəyiblər. Bununla da, düşmənə xidmət etdiklərini sübut edirlər. Aldıqları qrantların "haqqını" ödəməyə çalışırlar.

Bu mənada, erməni təcavüzünə cavab olaraq əks həmlə ilə həyata keçirilən uğurlu cəza tədbirləri Azərbaycan Respublikasının və bütövlükdə regionun təhlükəsizliyi üçün vacib addımdır. Amma sirr deyil ki, bu situasiya 30 il regionda gərgin mühitdən faydalanan, sülh və sabitliyi arzu etməyən bəzi xarici dairələrin üçün fiasko deməkdir. Sadəcə, həmin güclərin təlimatı ilə yerli antimilli qüvvələrin bu prosesdə xüsusi aktivlik göstərməsi təəssüf və ikrah doğurmaqdadır.

Ordumuzun şəhid verdiyi bir vaxtda bəzi müxalif dairələr, vətən xainləri ölkəmizdə çaxnaşma salmaq istəyir, təbii ki, istəklərinə nail ola bilməyəcəklər.

Azərbaycanın uğurlarını həzm edə bilməyən xarici və daxili bədxahlarımız unutmasınlar ki, heç bir qüvvə ölkəmizi öz düzgün yolundan uzaqlaşdıra bilməz. Taleyimiz öz əlimizdədir. Ölkə rəhbərinin də vurğuladığı kimi, "Biz nəyi, necə, nə zaman edəcəyimiz çox yaxşı bilirik". Ölkəmizdə mövcud xalq-hakimiyyət birliyi sarsılmazdır. Xalqımız qalib Sərkərdə, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə son günlər apardığı haqlı mübarizəni birmənalı olaraq dəstəkləyir. Bu gün Azərbaycan də hər hansı beynəlxalq siyasi dairələrin diktəsi ilə deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn müstəqil siyasət həyata keçirməklə Cənubi Qafqazın lider dövlətinə, eyni zamanda qalib dövlətinə çevrilmişdir. Bu, xalq-hakimiyyət birliyini güclü edən həlledici amildir.

Biz son günlər bir daha görürük ki, müəyyən xarici qüvvələrin təsiri altında, onlardan maliyyə asılılığında olan radikal müxalifət - antimilli ünsürlər və onların təlimatçıları hər cür dövlət mənafeyini satmağa, Vətəninə xəyanət etməyə hazırdır.

ŞƏRH

# Kadırov Zakayevlə "haqq-hesab" çəkəcəyinə söz verdi



**Çeçenistan rəhbəri Ramzan Kadırov "nəyin bahasına olursa-olsun, çeçen separatçılarının keçmiş emissarı Əhməd Zakayevin yanına çatacağına söz verib. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, Kadırov bununla bağlı Telegram-da çeçen dilində müvafiq müraciət dərc edib.**

"...Mən nə yolla olursa-olsun ona çatacağam, hətta bütün dünya alt-üst olsa belə, məhkəməyə getməyə belə hazıram", - deyə Kadırov bildirib. Onun sözlərinə görə, Zakayev çeçen xalqının və çeçen kişilərinin şərəfini aşağılayır.

"...Onu nə kişi, nə də qadın adlandırmaq olmaz, o, Ukraynada xüsusi əməliyyatda iştirak etməmək çağırışları ilə videolar çəkir, çeçenlərə qaçmağı, vətənini tərk etməyi təklif edir". Bu da Ramzanın müvafiq müraciətindəndir. Kadırovun sözlərinə görə, hazırda Zakayev xüsusi əməliyyat zonasındadır və "ona kim birinci çatarsa, onu məhv etməlidir".

P.S: Qeyd edək ki, Əhməd Zakayev İçkeriya Çeçenistan Respublikasının qurucularından və rəhbərlərindən biri, İçkeriya Milli Ordusunun briqada generalı, mədəniyyət naziri və Baş nazirinin müavini və sonradan ölkənin Xarici İşlər Naziri olub. Deyilənlərə görə, 1996-cı ilin avqustunda Qroznını ələ keçirmək üçün "Cihad" əməliyyatını planlaşdıranlardan biri də Əhməd Zakayev olmuşdu. Sonradan o, İçkeriya Çeçenistan Respublikasının Silahlı Qüvvələrinin "Xüsusi təyinatlı briqada"sına komandirlik etmişdi.

Gərək ki, hazırda İngiltərədə yaşayır. 2002-ci ildə Rusiya Zakayevi "cinayətkar" kimi ingilislərdən tələb etsə də, London onu ruslara vermədi və əksinə gərək ki, bir il sonra Əhməd Zakayevə Böyük Britaniyadan siyasi sığınacaq verildi.

Bəli, onun hazırda Ukrayna tərəfindən ruslara qarşı döyüşdüyü də həqiqətdir. Gərək ki, bu ilin avqustunda onun könüllü çeçenlərdən təşkil etdiyi batalyonun da görüntüləri yayımlanmışdı.

*Ağasəf Babayev*

# Kafe və restoranlardakı astronomik qiymətlər

## Bakının restoran biznesi: qiymətlər keyfiyyətə, xidmətlər qiymətə uyğundurmu?

Bölgələrdə iş yerlərinin və əməkhaqqının paytaxta nisbətən azlığı tez-tez vurğulansa da, Bakıda yaşayanların vəziyyəti kiçik şəhərlərdə və kəndlərdə yaşayanlardan daha çətindir desək, ədalətsizlik etmiş olmarıq. Dünyanın əksər iri meqapolislərində olduğu kimi, Bakıda da həyat bahalıdır, yaşam bahalıdır, ölməmək bahalıdır. Bu dəfə Bakının mərkəzi rayonlarında restoran və kafelərin fəaliyyətindən, göstərdikləri xidmətdən və xidmətə görə ödənilən məbləğdən yazmaq istədik.

### Bakının mərkəzində ən ucuz adi nahar neçəyə başa gəlir?

Şəhərdə acmış, evi uzaqda olan şəxsin sadə kafedə ən ucuz bir pay yemək yeməsi 5 manata başa gəlir. Təsəvvür edin ki, şəhərin mərkəzində normal görünüşə malik ortabab bir kafedə nahar etmək niyyətinə düşdünüz. Kabab belə kafelərin menyusunda əsas yeri tutur. Fərz edək ki, müştəri bir şiş kabab istəyir, bir qab salat, bir tikə pendir və bir şüşə su. Yəni, ən sadə bir menyu.

Bir şiş kabab- 6-7 manat, salat- 2 manat, pendir- 2 manat, 1 stəkan su və ya şirə- 1-2 manat. Orta hesabla 15 manat. 1 şiş kababda ən çox olsa 150 qram ət olar. Ətin kilosu 10-15 manat arasındadır, 150 qram kabab müştəriyə yarım kilo ətin qiymətinə başa gəlir.

Nəzərə alsaq ki, restoran və kafelər əti bazar qiymətindən bir az aşağı alırlar, onda bu ətin müştəriyə 5 qat qiymətə sırındığı məlum olar. Eləcə də, salat, içki və digər soyuq qəlyanaltılar dəyərindən 4-5 dəfə baha satılır.

Maraqlısı isə odur ki, bu soyğunçuluqdan sonra irad bildirmək istəyən müştərilərə elə baxırlar ki, elə bil pis iş görürsən, ya da soruşulmayası sözü soruşursan.

Ya da başqa bir formada naharı götürək- bir porziya qazan yeməyi (sulu yemək və quru yemək) insana azı 15 manata başa gəlir. Yeməkdən sonra çay içmək istəsən o zaman daha 2-3 manat da hesaba əlavə etməli olacaqsan (baxmayaraq ki, bir çaydan çayın maya dəyəri heç 20 qəpik belə etmir). Yəni, ən ucuz normal nahar 17 manat.

Onu da deyək ki, biz elit restoranlardan danışmırıq, adi yeməkxanaları nəzərdə tuturuq. Amma şəhərimizdə qiymətlərin kəllə-çarxda olduğu restoranlar da az deyil. Bu barədə başqa yazıda danışacağıq, hələlik isə, son dövrlərdə artımış zərərli restoran biznesi- "fastfoodlar" haqda...

### Ekspress nahar və ya "fast-food" servisi

Sözügedən məkanlarda təklif olunan yeməklər həm də ünvana çatdırılır. Sifariş edilən yeməkləri ünvana "pulsuz" çatdıran restoran və kafe əslində yeməklərdən kifayət qədər qazanır, bunun üçün ünvana çatdırmaq üçün əlavə ödəniş almağa ehtiyac qalmır.

Səbəbini soracaq olsanız, təklif olunan yeməklərin qiymətlərinə diqqət edin. Şəhərin mərkəzində məhşur bir məkanın ekspress yeməklərinin qiymətləri. Bir pay üçün:



1. Lahmacun - 3 manat
2. Salatlar - 2-4 manat
3. Şorbalar - 3-5 manat
4. Şirniyyatlar - 2-3 manat
5. Dönər (növündən asılı olaraq)- 3-5 manat
6. Kabab (1 şiş- 150 qr) -6-7 manat
7. Sadə səhər yeməyi- 6-7 manat
8. Qazan yeməkləri- 5-8 manat
9. İçkilər (stəkan)- 1-2 manat

Göründüyü kimi, yeməklərin qiyməti kifayət qədər bahadır. Hesablayaq: nahar etmək üçün bu məkana girsəniz və ən sadə menyunu istəsəniz, belə bir mənzərə alınacaq: yemək (1 pay sulu, 1 pay quru)- 8 manat, salat- 2 manat, içki- 1-2 manat, ortalama 13-14 manat. Gündə bir dəfə bu cür nahar etsən, həftədə 70-80 manat, ayda 300 manata yaxın pul edər.

Üstəlik, bir pay sayılan bu yeməklər əslində, çox kiçik həcmdə təklif olunur ki, normal qidalanan insanın doyması üçün kifayət etmir. Ona görə də az maaşa işləyən "ofis"çilər ucuz çatdırma servislərinə, "fast-food"çulara müraciət etməyə məcbur olurlar. Onlarda da qiymətlər nisbətən ucuz olsa da heç bir keyfiyyətdən söhbət belə hedə bilməz.

### Möcüzəsiz sobalardan çıxan möcüzəli qiymətlər

Hər gün mərkəzdəki ofislərə yeni bir restoranın və ya kafenin reklam bukletləri təqdim olunur. Deyəsən, yeni dövrün gərgin iş qrafikinin ofis işçilərini əlüstü, kompüter qarşısından qalxmadan "nahar" etməyə məcbur etməsi "fast-food" restoranların bazarını gücləndirir.

Müştəri sarıdan korluq çəkməyən şirniyyat məmulatları və "fast-food"lar hazırlayıb satan kafe-mağazalarda da qiymətlər dəhşətli dərəcədə bahadır. Məsələn, içərisində heç nə olmayan adi kiçik bulkanın və ya kökənin qiyməti 60-70 qəpikdir. Maraqlıdır, 650 qramlıq çörəyin qiyməti 70 qəpik olduğu halda, onun onda biri qədər çəkisi olmayan adi bulka necə 70 qəpik ola bilər?

Bu bulkanın arasına sosis, kartof püresi, meyvə cemi, göyərti kimi ərzaqlardan biri qoyulduqda qiymət azı 1-2 manata çıxır. Belə "sendviç"in azı 3-nü yeməlisən ki, aclığını bir az təxirə salasan. Ayran, çay, kakao isə stakanı 1 manat. Yəni, belə yerlərdə əlüstü nahar azı 5 manata başa gəlir. O ki qaldı "fast-food" yeməklərin sağlamlıq üçün yaratdığı dəhşətli təhlükələrə və xəstəliklərə, bu barədə çox yazılıb və bu, tamam başqa bir söhbətin mövzusudur.

### Bahalı restoranların müştəriləri daha çoxdur

Paytaxtımızın mərkəzində sadə insanların gedə biləcəyi məkanlar olduqca azdır. Çoxlarımız üçün əlçatmaz olan belə məkanların sayı da getdikcə artır. VİP adlandırılan kafelər, restoranlar cah-cəlalı ilə göz qamaşdırır. Bir az bəzək-düzək, bir az yaxşı xidmət və bunların nəticəsində də əməlli-başlı soyğunçuluq. Lakin buna baxmayaraq bahalı restoranlar müştəri sarıdan korluq çəkmirlər.

Heç kimə sirr deyil ki, belə məkanlara özümüzdən çox, əcnəbilər gedir. Ən yaxşı kafe və restoranlarda da onlar nahar edir. Bir az da dərinə getsək görərik ki, elə nəinki naharı, səhər və şam yeməklərini də bu cür məkanlarda edən əcnəbilərdən ötrü bu hesablama önəmli deyil. Bakının hər yerini bürümüş şəbəkə restoranlarında da bahalıqdır. Düzdür, burada xidmət və şərait yüksəkdir, amma müştərini verdiyi pul restoranın interyerindən və əlyeşdiyi masanın materialından daha çox maraqlandırır.

Əslində, normal əməkhaqqının müqabilində bu restoranlarda nahar etmək problem yaratmaz. Amma nəzərə alsaq ki, bizim gerçəkliklər buna imkan vermir, insanlarımız olduqca az əməkhaqqı müqabilində gecə-gündüz çalışır, o zaman mənzərə başqa cür görünür. Qısası, bu cür yerlər sadə insanlar üçün nəzərdə tutulmayıb.

Əməkdaşlardan soruşduqda yeməklərin qiymətlərinin normadan xeyli baha olmasını ərzaqları baha aldıqları ilə izah etməyə çalışırlar. Onlara bazardakı mövcud qiymətləri xatırlatdıqda isə, "biz ərzağı bazardan almırıq"-deyə cavab verdi. Belə yerdə nə deyəsən, belə çıxır ki, bu restorana kələm, pomidor, kartof kimi tərəvəzlər Amerikadan, ya da Yaponiyadan gətirilirmiş.

### Şübhəli, naməlum və... təhlükəli yeməklər

Xidmətlərin və yeməklərin keyfiyyətinə gəldikdə qeyd etməliyik ki, müştəri yediyi yeməyin hansı keyfiyyətli məhsuldan hazırlandığını bilmir və hazırlanma prosesini görmür. Mədəni ölkələrdə kafe-restoranların salonlarını mətbəxdən şəffaf şüşə arakəsmə ayırır ki, müştəri yeməyin hansı ərzaqdan və hansı gigiyenik şəraitdə hazırlandığını görür. Son vaxtlar saxta məhsulların aşkar olunması haqda mediada yayımlanan xəbərlər, belə keyfiyyətsiz məhsulların əsasən, kafe-restoranlarda realizə edildiyi haqda söylənənlər, şadlıq evləri və restoranlarda baş verən zəhərlənmə halları da narahatlıq yaradır.

Adi bir fakt- qızardılmış yeməklərdə yağ birdəfəlik istifadə olunmalıdır, əks-halda bu ciddi zəhərlənmə yarada bilər. Bizim yeməkxanalarda isə, bu qaydaya əməl olunduğunu söyləmək olmaz. Bizdə səhər tavaya tökülən yağda axşamadək qızartma yeməklər bişirilir. Ümumiyyətlə, yeməyin hazırlandığı yağın keyfiyyətini, istifadə vaxtı keçib-keçmədiyini də bilmək olmur. Bir çox kafe-restoranlarda qabların təmiz yuyulmaması və masaların üstünün yaxşı təmizlənməməsi də problem yarada bilir. Belə hallar yoluxucu xəstəliklərin tüğyan etməsinə gətirib çıxara bilər.

### Kasıblar üçün olan restoranın varlı müştəriləri

Mərkəzdəki elit restoranlarda qiymətlər baha olduğundan orta və aşağı imkanlı təbəqə daha çox künc-bucaqdakı "xudmani" kafelərə üz tutur ki, burada da xidmət və keyfiyyətdən danışmaq çətindir. Belə kafelərin çoxunda isə masaların üstündə heç menyu da yoxdur, bəzilərində isə menyu var, qiymətlər yoxdur. Belədə, qarson yeməkiçməklərin adlarını bir-bir saymalı olur. Burada əsas problem odur ki, bütün yeməklərin qiymətini bir-bir soruşa bilmirsən (bu, çox vaxt aparır və başağrısı olur) və sonda sənə istədikləri qiyməti "oxuyurlar". Yediyin yemək burnundan gəlir, amma heç nə deyə bilmirsən, desən belə "bizdə qiymətlər belədir, yeməyəydiniz"- deyə cavab verəcəklər. Xırman-yaba məsələsi yəni...

Bir şey də maraqlıdır- dünya ölkələrində maddi imkan cəhətdən aşağı təminatlı insanların üz tutduğu məhşur amerikan brendli restoranlar şəbəkəsinə (McDonalds) bizdə imkanlı vətəndaşlarımız üz tutur ki, burada da kimya sənayesinin "nailiyyət"lərindən və genetik modofikasiya olunmuş məhsullardan hazırlanmış kimyəvi qidalara baha qiymət ödəyirlər. Üstəlik, körpə və kiçik yaşlı uşaqları da bu restoranların xidmətlərinə- çipsilərə, kolalara və s zərərli məmulatlara dadandırırlar ki, bu da onların sağlamlığına ağır zərbələr vurur.

ABŞ-ın özündə bu restoranlara qarşı istehlakçı birliklərinin mübarizəsi davam edir və getdikcə daha çox insan bu restoranlardan istifadə etməməyə qərar verir. Yalnız yoxsullar və çarəsiz kasıblar məcburən belə restoranların "yeməklərin"dən yeyir. Bizdə isə təqlidçilik güclü olduğuna görə, bu restoranda oturmaq başqalarından fərqlənmək üçün vasitə hesab edənlər çoxdur. Bu, xüsusilə də yeniyetmə və gənclərə aiddir. Müşahidələr göstərir ki, əksər müştərilər dedyimiz məqamlara diqqət etmirlər və bizim milli psixologiyamızı yaxşı bilən işbazlar bundan sui-istifadə edərək asan yolla yaxşı pul qazanırlar. Sağlamlığımızı tanımadığımız işbazlara etibar etməmişdən əvvəl bir suala cavab vermək lazım gələcək- görəsən bu restoranın sahibini qazandığı pul daha çox maraqlandırır, yoxsa mənim sağlamlığım?

**Elçin Bayramlı**

ARAŞDIRMA

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.

## BİLİRSİNİZMİ?

İnsanın öz-özünü qıdıqlayaraq güldürə bilməsi mümkün deyil. Bunu sadəcə şizofren xəstələr edə bilər.

***

Təxmini uzunluğu 8 min 850 kilometr olan Çin səddinin sonlandığı yer Laolongtoudur.

***

Dünyadakı toyuğun sayı insanın sayından çoxdur.

***

Adətən çox tövsiyə verən insanlar çox problemi olan insanlardır.

***

İnsan DNT-si ilə banan DNT-si arasında 60% bənzərlik var.

***

Təbii qazın qoxusu olmur. Qaza xüsusi maddə qatırlar ki, sızma zamanı iyindən hiss olunsun.

# Qırmızı soğan "pis" xolesterinin qənimidir...



Xolesterinin yüksək səviyyədə olması o deməkdir ki, qanınızda qaraciyərin istehsal etdiyi mumşəkilli maddə - xolesterin həddindən artıq çox miqdardadır. Narahatlığa səbəb olan növ ASLP xolesterindir ki, bu da damarlarınızın divarlarına yapışdığı üçün adətən "pis" xolesterin olaraq adlandırılır. Xoşbəxtlikdən, pəhrizinizi yenidən nəzərdən keçirərək, ASLP xolesterinin əhəmiyyətli azalmaya nail ola bilərsiniz.

Yeni tədqiqatlar qırmızı soğanın istehlakının zərurətini sübut edirlər. Tərəvəzin unikal təsiri "yaxşı" xolesterini saxlayaraq və "pis" xolesterini orqanizmdən kənar edərək ürək xəstəliklərini azalda bilər. Əksər nüfuzlu tibbi saytlarının yazdığına görə, xolesterinin "yaxşı" növü ASLP xolesterini yığaraq və qaraciyərə nəql edərək, onun zərərli təsirinə müqavimət göstərir.

Alimlər müəyyən ediblər ki, soğan pudrası istehlak edən qruplarda "pis" xolesterinin (aşağı sıxlığı lipoproteinlərin və ya ASLP) səviyyəsinin azalması müşahidə olunub, eyni zamanda "yaxşı" xolesterinin (yüksək sıxlığı lipoproteinlərin və ya YSLP) yüksək səviyyəsi saxlanılırdı.

Dördüncü və səkkizinci həftədə OP-5 qrupunda xolesterinin səviyyəsi 11,2 faiz, nəzarət qrupu ilə müqayisədə isə - 20,3 faiz azalıb. Soğanın müxtəlif bioloji aktivliyə malik olduğu, məsələn, antibiotik və diabet əleyhinə bir vasitə olduğunun göstərildiyinə baxmayaraq, soğanın kimyası bir çox araşdırmaların mövzusu olub.



# DİQQƏT:
## Dollar bahalaşacaq?

### İQTİSADÇI ŞƏRH ETDİ

"ABŞ Federal Ehtiyyat sisteminin qərarı ilə dolların uçot dərəcəsinin yenidən qaldırılması əslində gözlənilən idi. Çünki ilin əvvəlində artıq bu cür toplantıların olacağı və uçot dərəcəsinin qaldırılacağı ilə bağlı qərar açıqlanmışdır". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov bildirib.

Onun sözlərinə görə, ilin sonuna qədər uçot dərəcəsinin artması müşahidə edilə bilər: "Səbəb budur ki, ABŞ son illərin ən böyük inflyasiyasını yaşayır. Məhz inflyasiyanı cilovlamaq üçün də sosial siyasətdən istifadə edir. Bu təbii olaraq digər valyutalara da öz təsirini göstərəcək. Çünki dünyanın bir nömrəli valyutası məhz dollardır. Düşünürəm ki, Azərbaycan manatına olan münasibət hazırda hamı üçün maraqlıdır. Nəzərə alsaq ki, Azərbaycan Respublikasında manatın məzənnəsi birbaşa inzibati yolla tənzimlənir. Yeni iqtisadi metodla tənzimlənmir.

Azərbaycanda mövcud makro-iqtisadi vəziyyət manatın məzənnə stabilliyinin qorunub saxlanılmasına imkan vermişdir. Valyuta ehtiyyatlarının mövcudluğu, neftin qiymətinin yuxarı olması, eləcə də dollara olan tələbatın pik həddə qalxmaması dolların 1 manat 70 qəpik səviyyəsində saxlanılmasına imkan vermişdir. İlin sonuna qədər də bu belə davam edəcək. Qarşıdakı illərdə isə fərqli situasiyalar yarana bilər. Azərbaycan Respublikasının 2022-2026-cı illər üzrə sosial iqtisadi inkişafla bağlı plan var və bu planda göstərilir ki, 2026-cı ilə qədər dolların məzənnəsi 1 manat 70 qəpik səviyyəsində saxlanılması gözlənilir".

*Abutel İlhamqızı*



## Bu futbolçu "Barselona"ya mümkün transferindən danışıb

"Real"ın futbolçusu Marko Asensio "Barselona"ya mümkün transferi ilə bağlı yayılan iddialara münasibət bildirib. Qol.az xəbər verir ki, o, "Marca"ya müsahibəsində deyib: "Düzünü desəm, "Barselona"nın məni almaq istəyib-istəməyəcəyini bilmirəm. Bir çox başqa klub mənə təklif göndərmişdi. "Barselona"ya keçmək barədə düşünməmişəm və bu variantı dəyərləndirməmişəm. Haqqımda çox şayiələr yayılır və bu normaldır. 7 aydan sonra istənilən klubla müqavilə bağlaya bilərəm".

Qeyd edək ki, Asensionun Madrid təmsilçisi ilə müqaviləsi bu mövsümün sonu başa çatır.

# Neftin qiyməti niyə tez-tez dəyişir?



**"Neftin qiymətinə təsir göstərən amillər çoxdur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Xalid Kərimli bildirib.**

Onun sözlərinə görə, əsas amillərdən biri neftə olan tələb və təklifə görə qiymətin dəyişməsidir: "Dünya siyasəti və iqtisadiyyatı stabil deyil, neftin təklifi və ona olan tələb də stabil olmayacaq və nəticədə qiymət dalğalanacaq. Dünyada əhəmiyyətli ölkələr Çin, Amerika, Avropa kimi ölkələr öz iqtisadiyyatı haqqında məlumatlar yaydıqca neftin qiyməti dəyişir. Proqnozlar verilir ki, iqtisadiyyat böyüyəcək. Beləliklə, neftin qiyməti bahalaşır. Çünki böyüyən iqtisadiyyatda neftə daha çox tələb olunur. Təklif amilində isə neft hasilatçıları mütəlif məlumatları yayır. Neftə olan tələbatın dəyişməsinə dair məlumatlara görə qiymətlər dəyişir. Burada siyasi-hərbi məsələlər də rol oynayır. Neftin qiyməti dollarla olduğu üçün dolların bahalaşması nefti ucuzlaşdırır. Dünya iqtisadiyyatının böhrana gedib-getməməsi də neftin qiymətində rol oynayır".

*Qönçə Quliyeva*

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3600**